Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

6-8 İYUL 2019-cu il

№ 118 (4016)

Qiyməti 40 qəpik

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

səh. 5

# ERMƏNİSTANIN QONDARMA «DQR»i DƏSTƏKLƏMƏSİNƏ RUSİYADAN RAZILIQ GÖRÜNTÜSÜ YARATMAQ CƏHDİ BAŞ TUTMADI...

Prezidentin AXC irsinə münasibətdə siyasi düşərgələrə fərqsiz yanaşmasına daha bir sübut - kimlər yubiley medalı aldı... səh. 3

Azərbaycan-Rusiya-İran-Türkiyə dördbucağındakı proseslər Qarabağ məsələsində Ermənistanı tam çökdürür... səh. 9

Azərbaycanın ərazi bütövlüyünə qarşı böyük maliyyə qəsdi ifşa edildi səh. 2

Qonşuluğumuzda dəhşətli savaşa doğru daha bir addım atıldı - ABŞ-ın Yaxın Şərqdə 36 bazası İranın müşahidəsi altında... səh. 7

Ermənilərin Türkiyədə Akdamar kilsəsini saxtakarlıqla özəlləşdirmək cəhdlərini ifşa edən elmi konfransa hazırlıq gedir səh. 3

Manatın regional valyutaya çevrilmək şansları yeni mərhələdə... səh. 10

Nazirlik əkin sahələrini yandıranlara qarşı nə tədbirlər görüb... səh. 11

Duru məişət yağlarında sonsuzluq yaratmaq potensialı... səh. 13



səh. 8

## İlham Əliyevlə Paşinyanın Trampa təbrik məktublarında iki kəskin fərqli mahiyyət...





Növbədənkənar parlament seçkiləri şayiələrində radikalları həyəcanlandıran məqamlar... səh. 4

Paşinyanın Trampa təbrik məktubunda düzüb-qoşduğu «demokratiya nağılının» pərdəarxası... səh. 6

Paşinyandan Trampa qlobal yalan - erməni icması ABŞ-ın inkişafına 300 il töhfə verib(?)... səh. 8

səh. 5 Ermənilər Sevana nə status istəyirlər - UNESCO-nu yeni oyuna çəkmək planı...



səh. 11 Azərbaycanda sosial məsələlər üzrə observatoriyanın maraqlı missiyası...



səh. 12 Gürcüstandakı azərbaycanlı məktəblərini bu il dərsliklə kim təmin edəcək?



səh. 13 Çirkli çimərliklər rəsmən elan olunur, ancaq giriş məhdudlaşdırılmır...



səh. 15 Şəbnəm Tapdığın "brend mənəm" mahiyyətli iddiasına şou aləmdən reaksiyalar...



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahıda məcburi köçkünlər üçün salınan yeni yaşayış kompleksinin açılışında iştirak edib

**Bakının Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi iyulun 5-də istifadəyə verilib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən "Trend"ə məlumat verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksinin açılışında iştirak ediblər.

## Azərbaycanın diplomatik korpuslarında qadınların və gənclərin sayı artır



**Azərbaycanın xarici diplomatik nümayəndəliklərinin təmsilçilərinin sayı artır.**

"Trend"in məlumatına görə, bunu Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşlarının hazırladığı "Azərbaycan diplomatiyası" adlı elektron resursun təqdimat mərasimi zamanı deyib.

O bildirib ki, Azərbaycanın xarici ölkələrdə diplomatik nümayəndəliklərinin sayı artmaqdadır: "Bu da xarici siyasətimizin coğrafiyasının genişlənməsinin bariz nümunəsidir. Bu gün Azərbaycan diplomatiyası dövlət başçısı tərəfindən qoyulan tapşırıqları qətiyyətlə, əzmlə, sədaqətlə yerinə yetirir. Diplomatlarımız ictimai-siyasi vəziyyəti ağır olan ölkələrdə ölkəmizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, onların sırasında gənclər, həmçinin qadınların sayı artır. ADA Universitetinin məzunları Xarici İşlər Nazirliyində, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində çalışırlar".

Tədbirdə, həmçinin məlumat verilib ki, Azərbaycan 183 xarici ölkə ilə diplomatik əlaqələrə malikdir.

Azərbaycanın 59 ölkədə səfirliyi, 9 şəhərdə baş konsulluğu, 17 ölkədə fəxri konsulluğu, 19 beynəlxalq təşkilat yanında nümayəndəliyi fəaliyyətdədir.

## Mətbuat Şurası mərhum jurnalistə həsr olunmuş kitabın təqdimatını keçirdi...

**İyulun 4-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə istedadlı jurnalist Zabil Müqabiloğlunun xatirəsinə həsr olunmuş konfrans keçirilib.**




Mərhum jurnalistlə bağlı "Son zəng" kitabının da təqdim olunduğu toplantıda qələm sahibinin əzizləri, dostları və həmkarları iştirak edib.

Toplantıda çıxış edən MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Z.Müqabiloğlunu özünə xas yaradıcılıq üslubu olan jurnalist kimi xarakterizə edən cəhətlərdən söz açıb. Ə.Amaşov bildirib ki, ölkənin bir sıra aparıcı kütləvi informasiya vasitələrində çalışmış Z.Müqabiloğlu özünün zəhmətkeşliyi ilə yanaşı, həm də vətənpərvərliyi ilə nümunə olub. "Mərhum həmkarımız Vətən, torpaq nisgilini də qəlbində daşıyan biri idi. Bu cəhət onun yaradıcılığına da təsir göstərirdi. Zabil həm də ictimai-siyasi proseslərə məxsusi yanaşma tərzi ilə seçilirdi. Əlbəttə, dostlarının, həmkarlarının nəzərində o, qayğıkeş, səmimi biri idi. Zabilin yoxluğu həqiqətən böyük itkidir. "- deyə deputat əlavə edib.

Çıxış edənlər Z.Müqabiloğluna həsr olunmuş kitabın ərsəyə gəlməsini yüksək qiymətləndirək, bu qədirbilənliyi jurnalistin ruhuna ehtiram nümunəsi kimi dəyərləndirib, jurnalistin həyat yolu ilə bağlı fikirlərini, xoş xatirələrini bölüşüblər.

Qeyd edək ki, Zabil Müqabiloğlu 1977-ci il noyabrın 17-də Zəngilan rayonunun Babaylı kəndində anadan olub. 2017-ci il fevralın 26-da dünyasını dəyişib.

## Ermənistanda Paşinyanın reytinqi düşür

**Ermənistan baş naziri Nikol Paşinyan populyarlığına görə prezident Armen Sarkisyandan geri qalır.**

"Trend"in erməni KİV-inə istinadən məlumatına görə, bu barədə ABŞ-ın Beynəlxalq Respublika İnstitutunun keçirdiyi rəy sorğusunda məlum olub. Qeyd olunur ki, N.Paşinyanın reytinqi 56 faizə bərabər olub. Eyni zamanda prezident A.Sarkisyanın reytinqi 61 faiz təşkil edib.

# Birinci vitse-prezident Mehriban Əliyeva: "Azərbaycan Cənubi Qafqazda Fransanın ən böyük ticarət tərəfdaşıdır"

**İyulun 5-də Birinci vitse-prezident Mehriban Əliyevanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizə gələn Fransa Respublikasının Arktika və Antarktika məsələləri üzrə beynəlxalq danışıqlara məsul səfiri, sabiq ekologiya, dayanıqlı inkişaf və energetika naziri xanım Mari-Seqolen Ruayal ilə görüşü olub.**



Mari-Seqolen Ruayalın ölkəmizə səfərinin uğurlu keçəcəyinə əminliyini ifadə edən Birinci vitse-prezident Azərbaycanla Fransa arasında bir çox sahələr üzrə əlaqələrin inkişaf etdiyini məmnunluqla qeyd edib, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu vurğulayıb. Mehriban Əliyeva ötən il Prezident İlham Əliyevin, bu il isə özünün Fransaya səfərini, aparılan danışıqları, imzalanan sənədləri siyasi əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirib.

İqtisadi sahədə də əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Birinci vitse-prezident bu istiqamətdə yaxşı potensialın mövcudluğunu qeyd edib, diqqətə çatdırıb ki, Azərbaycan Cənubi Qafqazda Fransanın ən böyük ticarət tərəfdaşıdır və ölkələrimiz arasında ticarət dövriyyəsində müsbət dinamika var. "Xoş haldır ki, ənənəvi tərəfdaşlıq sahəsi olan enerji əməkdaşlığı ilə yanaşı, qeyri-neft sektorunda da əməkdaşlıq genişlənir", -deyən Birinci vitse-prezident bir sıra Fransa şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətini qeyd edərək, yüksək texnologiyalar, nəqliyyat, şərabçılıq kimi sahələrdə əlaqələrin möhkəmləndiyini bildirib.

Ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayan Mehriban Əliyeva paytaxtda Azərbaycan və Fransa prezidentlərinin iştirakı ilə təməli qoyulan Bakı Fransız Liseyinin və hər 2 ölkənin dövlət başçılarının təşəbbüsü ilə yaradılan Azərbaycan-Fransız Universitetinin uğurla fəaliyyət göstərdiyini qeyd edib, humanitar sahənin ölkələrimizin və xalqlarımızın bir araya gətirilməsində böyük rol oynadığını vurğulayıb. Mehriban Əliyeva son vaxtlar bu istiqamətdə görülən işlərdən danışaraq, Azərbaycanın və Fransanın şəhərləri arasında əməkdaşlıq və dostluq sazişlərinin bağlanmasını ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin daha da inkişaf etməsinə şərait yaratdığını deyib və qonağı ölkəmizdə salamlayaraq, ona uğurlu səfər arzulayıb.

Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşməyin onun üçün şərəf olduğunu bildirən Mari-Seqolen Ruayal Mehriban Əliyevanın bu yaxınlarda Parisə səfərini xatırlayaraq, bu səfəri yüksək dəyərləndirib, görüşdən əvvəl Bakıdakı Azərbaycan-Fransız Universitetinə getdiyini qeyd edərək, belə layihələrin 2 ölkə arasında qurulan əməkdaşlığı təcəssüm etdirdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# Azərbaycanın ərazi bütövlüyünə qarşı böyük maliyyə qəsdi ifşa edildi

*İşğalaltı ərazilərimizdə "Visa", "MasterCard" ödəniş kartlarının fəaliyyəti dayandırıldı*

**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının (Palata) maliyyə bazarları, o cümlədən, ödəniş sistemləri sahəsində həyata keçirdiyi tənzimləmə və nəzarət çərçivəsində Azərbaycan Respublikasının işğal altında olan ərazilərində fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartlarına xidmət göstərilməsi faktları müəyyən edilib.**




Həmçinin, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "maliyyə nazirliyinin" rəsmi internet səhifəsi üzərindən maddi yardımın toplanması faktı aşkarlanıb.

Baki-xeber.com xəbər verir ki, bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı məlumatda deyilir. Qeyd edilir ki, bu faktların mövcudluğu ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün, beynəlxalq hüquqi normaların pozulması, "çirkli pulların yuyulması" və terrorizmin maliyyələşdirilməsi baxımından əlverişli şəraitin yaradılması, habelə beynəlxalq kart təşkilatları tərəfindən müəyyən edilmiş tələblərin gözlənilməməsi deməkdir. Palata tərəfindən aşkar olunmuş faktlar əsasında "Visa Inc." və "MasterCard Worldwide" beynəlxalq kart təşkilatının rəhbər nümayəndələri ilə görüşlər keçirilərək bu təşkilatların brendini daşıyan ödəniş kartlarına işğal olunmuş ərazilərdə xidmət göstərilməsinin təxirə salınmadan dayandırılması diqqətə çatdırılıb.

Həyata keçirilən kompleks tədbirlər və birgə fəaliyyət nəticəsində qondarma "Dağlıq Qarabağ Respublikasının" "maliyyə nazirliyinin" rəsmi internet səhifəsi üzərindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartları ilə maddi yardımların toplanması, habelə işğal olunmuş ərazilərdə bir sıra bankların bankomat şəbəkəsi üzərindən bu ödəniş kartlarının qəbulu dayandırılıb. Palata olaraq ödəniş sistemləri sahəsində tənzimləmə və nəzarət çərçivəsində Azərbaycan Respublikasının işğal altında olan ərazilərində fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarının brendini daşıyan ödəniş kartlarına xidmət göstərilməsi daim monitorinq olunaraq müvafiq tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanır.

**Baki-xeber.com**

**Prezident İlham Əliyev bir sıra şəxsləri "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918 - 2018)" yubiley medalı ilə təltif edib. Qeyd edək ki, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis edilməsi ilə bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.**




# Prezidentin AXC irsinə münasibətdə siyasi düşərgələrə fərqsiz yanaşmasına daha bir sübut - kimlər yubiley medalı aldı...

Bu medalla AXC liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır. Medalla təltif olunanların sırasında müxalifəti

## *Fazil Mustafa: "Ölkə başçısı siyasi mənsubiyyətə görə heç bir ayrıseçkiliyə yol vermədən bu təltifi edib"*

təmsil edən şəxslərin də adı var. Bu xüsusda Fazil Mustafanın, Fərəc Quliyevin, Qüdrət Həsənquliyevin, Asim Mollazadənin və başqalarının adını qeyd edə bilərik. Prezidentin imzaladığı bu sərəncam AXC irsinə dövlətin necə hörmətlə yanaşdığının əlaməti sayıla bilər. Təltif olunanların sırasında müxalif siyasətçilərin də olması onu deməyə əsas verir ki, dövlətimiz AXC irsinə münasibətdə siyasi mənsubiyyət amilinə fərq qoymayıb.

**Medalla təltif olunanlardan biri, müxalifyönlü Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə Prezident AXC-yə ən gözəl münasibətini ortaya qoyub:** "Həmin medalın bütün parlamentarlara təqdim olunması məqsədəuyğun sayılıb. Yəni bu məsələdə kimsə siyasi dünyagörüşü, müxalifliyinə görə fərqləndirilməyib. Ola bilsin ki, bu məsələdə kimin uyğun və ya uyğun olmadığı ilə bağlı mövzu ətrafında dərindən araşdırmanın aparılması məqsədəuyğun sayılmayıb. Çünki onda tarix uzana bilərdi. Buna görə də ölkə başçısı siyasi mənsubiyyətə görə heç bir ayrıseçkiliyə yol vermədən bu təltifi edib. Bu səbəbdən də hər birimiz ölkə başçısına öz təşəkkürümüzü bildirmişik. Bu çox qürurverici bir hadisədir. Çünki Cümhuriyyətin 100 illiyi həm də bizim özümüzün şərəf tarixidir. Millətimizin ən şərəfli keçmişidir. Təbii ki, belə mükafata sahib olmaq hər bir təltif olunana əlavə qürur hissi yaşadır. Hər halda bu, AXC irsinə ehtiramı daha da artıracaq. Amma AXC irsi elə böyükdür ki, buna rəğbəti yalnız medal almaqla məhdudlaşdırmaq olmaz. Hesab edirəm ki, bu dəyərlər daim yaşayacaq.

Nə qədər ki, Cümhuriyyətimiz var, ona sevgi də yaşayacaq. Belə dəyərin verilməsi Cümhuriyyət irsinə rəğbətin güclənməsinə səbəb olur. AXC irsi elə bir dəyərdir ki, onu siyasi mənsubiyyətindən asılı olmayaraq, hamı sevməlidir. Ölkə başçısının münasibəti buna daha da stimul vermiş olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Bu il iyunun 28-dən 30-na kimi Diasporla İş üzrə Dövlət Komitəsinin, Beynəlxalq Diaspor Mərkəzinin (BDM) və Beynəlxalq Əsassız Erməni İddialarıyla Mübarizə Dərnəyinin (ASİM-DER) təmsilçilərindən ibarət nümayəndə heyətinin Türkiyənin Van şəhərinə səfəri, xüsusilə Vandakı Akdamar adasındakı Akdamar kilsəsini ziyarəti və həyata keçirilmiş məlumatlandırma kampaniyası Türkiyə ermənilərinin, erməni diasporunun ciddi narahatlığına səbəb olub.**


AIHM'den Süryanice soyadları için emsal karar

Bir bu eksikti: Akhtamar'ı da sahiplendiler

AGOS

ERMENICE SAYFALARDA

**Bir bu eksikti: Akhtamar'ı da sahiplendiler**

Azerbaycan Diaspora Merkezi Başkanı Ağayev ve ASİMDER Genel Başkanı Gülbey, Akhtamar Adası'ndaki Surp Haç Ermeni Kilisesi'ni ziyaret etti. Ağayev ve Gülbey, Kilise'nin Hıristiyan Türkler'e ait olduğunu iddia ettiler.

15'TE

# Ermənilərin Türkiyədə Akdamar kilsəsini saxtakarlıqla özəlləşdirmək cəhdlərini ifşa edən elmi konfransa hazırlıq gedir

Diasporla İş üzrə Dövlət Komitəsindən baki-xeber.com-a verilən məlumata görə, belə ki, erməni yazıçı Hrant Dink və bir qrup erməni tərəfindən 1996-cı ildə təsis edilmiş, türk və erməni dilində nəşr olunan "Agos" qəzetinin 5 iyul 2019-cu il tarixli 1202-ci nömrəsində "Bir bu əskikdir: Akdamara da sahib çıxdılar" sərlövhəli məqalə dərc olunub. Qəzetin 14-cü səhifəsində isə "Akdamar xristian türklərinə aid imiş..." başlıqlı yazıda nümayəndə heyətinin bildirdiyinə görə, Akdamar kilsəsinin ermənilərin iddia etdiyi kimi, ermənilərə deyil, türk-xristian mədəniyyətinə aid olmasını təsdiq edən sənədlərin mövcud olduğu və yaxın vaxtlarda Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və digər qurumların əməkdaşlığı çərçivəsində elmi-praktik konfransın, mədəni və digər tədbirlərin keçiriləcəyi qeyd edilib. Bununla yanaşı, kilsənin bütün dünya xristianlarının ortaq məbədi olduğu vurğulanır və Qafqaz xristianlarının burada birgə ayinləri yerinə yetirmələri nəzərdə tutulur.

Məqalədə Akdamar kilsəsinin 90 ildir istifadə edilmədiyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyilə restavrasiya edilərək, 2007-ci ildə muzey kimi ziyarətçilərin istifadəsinə verildiyi və açılış mərasimində Türkiyə ermənilərinin sabiq patriarxı Patrix Mesrop Mutafyanın çıxışında da məbədi erməni kilsəsi adlandırdığı bildirilib.

Xatırladaq ki, son zamanlar Ermənistandan həm rəsmi, həm də digər şəxslərin Van və ətraf bölgələrə səfərlərinin intevsivləşməsi, Türkiyənin müxtəlif bələdiyyə rəhbərləri ilə keçirilən görüşlərdə turizm, mədəniyyət və digər istiqamətlərdə müxtəlif layihələrin müzakirəsi, eləcə də Akdamar kilsəsində Ermənistan bayrağının nümayiş etdirilməsi Azərbaycan ictimaiyyəti tərəfindən ciddi narahatlıqla qarşılanmaqla yanaşı, bunun arxasında ermənilərin məkrli planlarının durması kimi qiymətləndirilib.

Nümayəndə heyəti azərbaycanlıların kompakt məskunlaşdıqları Van Alaköy kəndində də görüş keçirib. Alaköy kənd Muxtarlığında keçirilən görüşdə Dövlət Komitəsinin nümayəndəsi Kənan Məmmədov Azərbaycanın mədəni irsinin təbliği və qorunması istiqamətində görülən işlər, eləcə də soydaşlarımızın kompakt məskunlaşdıqları Van və ətraf bölgələrdə həyata keçiriləcək tədbirlərlə bağlı məlumat verib. Bildirilib ki, Türkiyənin Şərqi Anadolu bölgəsində, o cümlədən, Vanda yaşayan soydaşlarımızın öz milli-mədəni mənsubiyyətlərini qoruyub saxlaması, gənc və böyüməkdə olan nəslin Azərbaycan mədəniyyəti ilə yaxından tanış olması, onların milli-mənəvi ruhda böyüməsi istiqamətində yaxın vaxtlarda silsilə tədbirlərin təşkili nəzərdə tutulur. Bu görüşün də həmin tədbirlərə hazırlıq məqsədi daşıdığı diqqətə çatdırılıb.

Alaköy kənd muxtarı Zeki Akyürek Azərbaycan nümayəndə heyətinə görüş üçün təşəkkür edib. Dövlət Komitəsi tərəfindən Van şəhərində soydaşlarımızla bağlı planlaşdırılan tədbirər ətrafında fikir mübadiləsi aparılıb və bir sıra təkliflər səsləndirilib.

Sonra şəhid Çetin Aysan adına Alaköy kənd orta məktəbinin şagirdlərinə Dövlət Komitəsi adından 250 ədəd müxtəlif oyuncaq və Azərbaycan bayraqları hədiyyə edilib.

Qeyd edək ki, Türkiyədə etnik azərbaycanlıların kompakt yaşadığı ərazilərdən biri də Van bölgəsi hesab olunur. Vanın 10-dan çox kənd əhalisinin mütləq əksəriyyətini vaxtilə İrandan buraya köçmüş etnik azərbaycanlılar təşkil edir.

**Bu günlərdə sosial şəbəkələr və bəzi media orqanlarında parlamentin buraxılacağı və növbədənkənar seçkilərlə bağlı qərarın veriləcəyi ilə bağlı dezinformasiya kimi təqdim olunan xəbər ciddi rezonans doğurdu. Xüsusilə də radikal müxalif camea bu xəbər ətrafında ciddi manipulyasiyalar etməyə çalışır.**

# Növbədənkənar parlament seçkiləri şayiələrində radikalları həyəcanlandıran məqamlar...

## *Rauf Zeyni: "Bu istiqamətdə ajiotajın yaradılmasında maraqlı olanlar ölkədəki vəziyyəti qarışdırmaq istəyənlərdir"*




Hətta bunundan bağlı rəsmi mövqeyin ortaya qoyulmasına baxmayaraq, radikal dairələr mövzu ətrafında müzakirələri qızışdırmaqda xüsusilə maraqlı görünürlər.

Baş Nazirin müavini, hakim Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, Azərbaycanda Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı şayiələrin səbəbini bilmir: "Ola bilsin ki, jurnalistlər bu informasiya ilə oxucularının sayını artırmaq istəyirlər. Ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün hər hansı səbəb yoxdur".

O xatırladıb ki, bu ilin dekabrında növbəti bələdiyyə seçkiləri keçiriləcək: "Konstitusiyada göstərilib ki, parlament seçkiləri 5 ildən bir - noyabr ayında keçirilməlidir. Qanunvericiliyə əsasən, növbəti parlament seçkiləri 2020-ci ilin noyabrında keçiriləcək".

Deputat Aydın Mirzəzadənin sözlərinə görə, iyunun əvvəlindən başlayan növbədənkənar sessiya hələ bitməyib: "İyul ayının əvvəlində də həmin sessiyanın növbəti iclaslarının keçirilməsi gözlənir. Parlamentin buraxılması barədə heç bir məlumat yoxdur və hesab edirəm ki, buna ehtiyac da yoxdur. Cəmi bir ildən sonra Azərbaycan Respublikasının Konstitusiyasına görə, növbəti parlament seçkiləri keçiriləcək. Sessiya iclasının iyul ayına təsadüf etməsi ilə bağlı deyə bilərəm ki, hər zaman nələrsə "ilk" olur. Bu normal haldır. Bu cür informasiyaların yayılması sadəcə olaraq müəyyən mövzuları müzakirə etmə istəyindən irəli gəlir. Düşünürəm ki, istənilən mövzu müzakirə oluna bilər".

Belə olan təqdirdə, niyə radikal dairələr növbədənkənar seçkilərin keçiriləcəyi ilə bağlı informasiyaya belə həssas münasibət göstərirlər?

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin dairələr hələ keçən ildən bu informasiyanı dövriyyəyə buraxıblar:** "Görünür, onların bununla bağlı maraqları və planları var. Bu səbəbdən də təkidlə bunun reallaşmasını istəyirlər. Hüquqi nöqteyi-nəzərdən parlament seçkilərinin vaxtı gələn ilin payızındadır. Bununla bağlı dövlətin yüksək vəzifəli şəxsləri də açıqlama verdilərsə, demək, belə də olacaq. Bəlkə də elə bir fövqəladə hal olsun ki, belə zərurət yaransın. Amma hələ ki, bizdə olan məlumatlarda belə bir zərurət yaranmayıb. Biz son prezident seçkiləri ilə bağlı belə bir qərarın verildiyinin şahidi olduq. Onda gördük ki, nə qədər doğru və zamanında verilən qərar oldu.

*"Azərbaycan dövləti belə zərurəti görmürsə, seçkilər vaxtında keçiriləcək"*

Həmin vaxt xarici qüvvələrin bəzi məkrli niyyətləri ürəklərində qaldı. Ali rəhbərliyin bu istiqamətdə atdığı addım xalqın rifahı və təhlükəsizliyi üçündür. Bu istiqamətdə ajiotajın yaradılmasında maraqlı olanlar ölkədəki vəziyyəti qarışdırmaq istəyənlərdir. Bilirsiniz ki, seçki olan ildə siyasi aktivlik artır, hərarət yüksəlir. Bunun da fonunda xaricdən gələn bəzi siyasi tapşırıqları icra etmək onlar üçün asanlaşır.

Bölgədəki gərginlik yəqin ki, bu cür planların həyata keçirilməsini onlar üçün bu il daha optimal edir. Ancaq Azərbaycan dövləti belə zərurəti görmürsə, seçkilər vaxtında keçiriləcək. Bu cür həssas məqamlar ətrafında edilən manipulyasiyalar təsadüfi deyil. Məqsəd ölkədəki daxili sabitliyi pozmağa yönəlib".

***Məhəmmədəli QƏRİBLİ***

**Vəzifəsindən, daşıdığı statusdan asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Azərbaycan Silahlı Qüvvələrinə dəstək göstərməlidir. Bu gün imkanlı şəxslərin, xüsusən də yüksək maaş alan dövlət məmurlarının kütləvi olaraq Azərbaycan Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə dəstəyi göstərməsinin şahidi ola bilmirik.**

# Yüksək maaşlı məmurlar arasında Silahlı Qüvvələrə Yardım Fonduna yardım meyli çox aşağıdır, tək-tək...

## *Əliməmməd Nuriyev: "Məmurlar Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə köçürmək üçün daha böyük imkanlara malikdirlər, lakin onların çoxu bu istiqamətdə addım atmır"*



Müəyyən istisnaları nəzərə almasaq, demək olar ki, dövlət məmurları arasında bu sahəyə könüllü yardımlar göstərənlər azdır.

Ekspertlər qeyd edirlər ki, Azərbaycan Silahlı Qüvvələri Prezident İlham Əliyevin şəxsi nəzarətindədir və dövlət tərəfindən bu sahəyə kifayət qədər maliyyə vəsaiti ayrılır. Bununla belə, müxtəlif dövlət məmurlarının, imkanlı şəxslərin də Silahlı Qüvvələrə maliyyə yardımları göstərməsi çox müsbət olardı.

Ekspertlər bildirirlər ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasına insanlar könüllü qoşulmalıdırlar.

**Tanınmış hüquqşünas Əliməmməd Nuriyev bizimlə söhbətində bildirdi ki, Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə dəstəyi göstərmək hər şeydən əvvəl mənəvi məsələdir.** Ə.Nuriyev hesab edir ki, həm iri məmurlar, həm xaricdəki Azərbaycan diasporu, həm də digər şəxslər bu sahədə aktivlik göstərməlidirlər. Bir sıra məmurların bu aksiyaya qoşulmağa maraq göstərmədiyini deyən Ə.Nuriyev bildirdi ki, sanki onlar yardım üçün "komanda" gözləyirlər. Ancaq onların bu işə könüllü qoşulmalı olduğunu deyən Ə.Nuriyevin sözlərinə görə, başqa ölkələrdə həm məmurlar, həm də diaspor qurumları çox aktiv şəkildə Silahlı Qüvvələrə yardımlar göstərirlər. "Hər şeydən əvvəl Silahlı Qüvvələrə Yardım Fonduna dəstək könüllü şəkildə olmalıdır. Silahlı Qüvvələrə dəstək göstərmək hər bir vətəndaşın mənəvi borcudur. Gərək könüllü olaraq onlar öz borclarını dərk etsinlər. Əvvəlki illərdə Silahlı Qüvvələrə Yardım Fonduna çox aktiv və kütləvi şəkildə dəstək göstərilir, maliyyə köçürülürdü. Həm məmurlar, həm iş adamları, həm də sıravi vətəndaşlar bu sahəyə daha çox dəstək göstərirdilər. Sonradan bu proses səngiməyə başladı. Yalnız müəyyən şəxslər əməkhaqqının bir hissəsini Silahlı Qüvvələrə Yardım Fonduna köçürürlər. Az da olsa, bəzi məmurlar bu addımı atırlar. Məmurlar Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə köçürmək üçün daha böyük imkanlara malikdirlər, lakin onların çoxu bu istiqamətdə addım atmır. Onların çoxu bu məsələdə sərbəst hərəkət etmir və sanki bir göstəriş gözləyir. Bu daha çox mənəvi məsələdir. Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə dəstəyi göstərmək bir vətənpərvərlik işidir. Mən deməzdim ki, Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürməyən məmurlar vətənpərvər deyil, sadəcə olaraq onlar sanki tapşırıq gözləyirlər. Bizim bəzi məmurların əməkhaqqı daha yüksəkdir, bundan əlavə, onların başqa gəlir yerləri var, biznesə sahibdirlər, bu baxımdan onların Silahlı Qüvvələrə yardım Fonduna maliyyə köçürmək imkanları var. Bu onlara imkan verir ki, prosesdə aktiv şəkildə iştirak etsinlər".

Ə.Nuriyev qeyd etdi ki, Silahlı Qüvvələrin gücləndirilməsi, bütövlükdə, ölkəmizin müdafiə sisteminin gücləndirilməsinə səbəb olur. O hesab edir ki, dövlət büdcəsindən orduya kifayət qədər vəsait ayrılmasına və ordunun Prezident İlham Əliyevin şəxsi nəzarətində olmasına baxmayaraq, vətəndaşlar da Silahlı Qüvvələrə yardım göstərmək sahəsində aktiv olmalıdırlar: "Vətəndaşların da bu istiqamətdə fəal iştirak etməsi vacibdir. Qonşu ölkələrə baxsaq görərik ki, həmin ölkələrdə həm iri dövlət məmurları, həm də diaspor Silahlı Qüvvələrə yardım sahəsində çox fəaldırlar. Xüsusən də ərazisi işğal altında olan ölkələrdə bu məsələyə xüsusi vətəndaş münasibəti var. Məmurlar, vətəndaş cəmiyyətinin üzvləri, özəl sektorun nümayəndələri, mediada mütəmadi olaraq, simvolik də olsa, orduya maliyyə köçürürlər. İşğalçı Ermənistanın silahlı qüvvələrinə xaricdəki erməni diasporu indinin özündə də böyük maliyyə vəsaiti köçürür. Ancaq Azərbaycanda isə nə imkanlı şəxslər, nə diaspor Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə yardımı göstərmirlər. Halbuki, onlar bu işdə daha fəal olmalıdırlar. Silahlı Qüvvələrə yardım məsələsi birbaşa Vətənlə bağlı məsələdir. Ona görə də bu işdə həm məmurlar, həm də vətəndaşlar yaxından iştirak etməlidirlər".

*"Silahlı Qüvvələrə yardım məsələsi birbaşa Vətənlə bağlı məsələdir"*

***İradə SARIYEVA***

**Rusiyanın rəsmi dairələri Ermənistanın növbəti hiyləsini ifşa edib. Rəsmi Moskva Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin "Ermənistan-"Artsax" strateji ittifaqı" forumunun təşkilat komitəsinin üzvləri ilə qalmaqallı görüşü ilə bağlı mövqeyini açıqlayıb.**



# Ermənistanın qondarma "DQR"i dəstəkləməsinə Rusiyadan razılıq görüntüsü yaratmaq cəhdi baş tutmadı...

## *Elşən Həsənov: "Rusiya heç vaxt neytrallığına xələl gətirən belə məkrli və qanunazidd layihələrdə iştirak etməz"*

Ermənistan mediasının verdiyi məlumata görə, iyunun 26-da forumun fəalları Armen Rüstəmyan, David Şahnazaryan və Qeqam Nazaryan Rusiya səfiri ilə Dağlıq Qarabağ danışıqlarının detallarını müzakirə etmiş, sonda ona mayın əvvəllərində işğal altındakı Xankəndidə keçirilmiş forumun rus dilində bəyannaməsini təqdim etmişlər.

Rusiya XİN-in rəsmi təmsilçisi Mariya Zaxarova Moskvadakı ənənəvi brifinqində Kopırkinin keçirdiyi görüşlə bağlı ölkəsinin mövqeyini bəyan edib. Jurnalistin "Mayın 26-da Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin "Ermənistan-"Artsax" strateji ittifaqı" forumunun təşkilat komitəsinin üzvləri ilə görüşünü necə şərh edərdiniz" sualına Mariya Zaxarova belə cavab verib ki, Rusiya diplomatları öz fəaliyyətlərində müvafiq beynəlxalq hüquqi sənədləri rəhbər tuturlar və öz səlahiyyətləri çərçivəsində ilk növbədə işlədikləri ölkələrin rəsmi hakimiyyətləri ilə, həmçinin, qeyri-hökumət təşkilatlarının, siyasi partiyalar və cərəyanların nümayəndələri ilə təmas qururlar: "Bu, onların birbaşa vəzifə borcudur".

Onun sözlərinə görə, bu təmaslar açıq şəkildə olur və onlar haqda ictimaiyyət məlumatlandırılır. "Bu, bütünlüklə RF-nin Ermənistandakı səfirliyinə də aiddir". Xatırladılan görüşə gəlincə, Zaxarova deyib: "Söhbət səfirin olduğu ölkənin siyasi qüvvələri ilə ünsiyyəti çərçivəsində bəsit təmaslarından gedir. Bu, Ermənistanın qədim partiyalarından olan "Daşnaksütyun"un nümayəndələri ilə görüş idi. Mən, həmçinin, təsdiqləyə bilərəm ki, həmin söhbətin təşəbbüskarı erməni tərəfi olub və söhbətdə məsələlərin geniş spektrinə toxunulub. Dağlıq Qarabağ mövzusu da müzakirə edilib, hərçənd, o əsas məsələ olmayıb".

Zaxarova bildirib ki, Rusiyanın Dağlıq Qarabağ nizamlanmasına dair mövqeyi dəyişməz qalır, bu mövqe Moskvada - dövlətin paytaxtında səslənir və yerlərdə nümayəndələri, o cümlədən, diplomatları tərəfindən təsdiqlənir: "Bu mövqe həmişə ölçülü-biçili və balanslı olması ilə xarakterizə olunur. Həmin mövqe haqda bizim azərbaycanlı tərəfdaşlarımız da məlumatlandırılıb".

Beləliklə, Zaxarovanın sözlərindən belə qənaət hasil olur ki, daşnaklar, sadəcə, rusiyalı diplomatları aldadıb pis vəziyyətə qoyublar və görüşdə təxribatçı forumun təşkilat komitəsi üzvlərinin peyda olması səfir Kopırkin üçün tam gözlənilməz olub. Bununla Ermənistan guya Rusiyanın Ermənistan-"Artsax" yaxınlaşmasına Rusiyanın da dəstək verməsinə dair görüntü yaratmaq istəyib, lakin Rusiyanın rəsmi dairələri onları ifşa edib. Ermənilərin həmin planının tam fiaskoya uğradığını söyləmək olarmı?

**Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın bütün siyasəti fırıldaq və hiylə üzərində qurulub:** "Onların özü heç qondarma qurumun "müstəqilliyini" tanımırlar. Rusiya niyə bu yöndə onlara dəstək verməlidir? Ola bilər ki, partiya səviyyəsində səfirlə görüş istəyiblər. O da qəbul edib. Əslində, bu, normal diplomatik etiket qaydalarına uyğundur. Çünki istənilən ölkənin səfiri təmsil olunduğu ölkədə qanuni fəaliyyət göstərən partiyalarla, QHT-lərlə görüş keçirə bilər. Biz analoji tendensiyanı Azərbaycanda da müşahidə edirik. Buna kimsə etiraz edə bilməz. Ancaq Ermənistan normal ölkə olmadığı üçün, belə detallardan əndişə keçirir. Məsələn, bu günlərdə biz həmin bu səfirin eks-prezident Köçəryanla keçirdiyi görüşdən Ermənistanın rəsmi dairələrinin necə narahatlıq keçirdiyinin şahidi olduq. Hətta həmin təmasa görə səfirə xəbərdarlıq da etdilər. İndi də səfirlə başqa bir oyun oynayıblar. Daha doğrusu, səfirin timsalında saxtakar bir "layihəyə" Rusiyanın dəstək ifadə etdiyinə dair rəy yaratmağa çalışıblar. Amma bu tam ifşa olunub. Görüşü başqa adla alıb, çıxanda guya başqa mövzu ətrafında müzakirə aparıldığına dair rəy formalaşdırıblar. Rusiyanın rəsmi dairələrinin açıqlaması isə onların istəklərini ürəyində qoyub. Zaxarova bəyan edib ki, ölkəsi heç vaxt bu cür məsələdə Ermənistana dəstək ifadə edə bilməz. Bununla bir daha sübut olunur ki, ermənilər məqsədlərinə çatmaq üçün bütün hiylə və variantlardan istifadə edirlər. Rusiya ATƏT-in Minsk Qrupunun həmsədridir. O heç vaxt neytrallığına xələl gətirən belə məkrli və qanunazidd layihələrdə iştirak etməz".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Ermənistandakı Sevan gölü ötən yaydan bəri təbii rəngini dəyişərək yaşıllaşmağa başlayıb. Ermənistan saytlarından birinin yaydığı məlumata görə, bunu peykdən çəkilmiş fotogörüntülər də təsdiqləyir. Artıq göl tədricən bataqlığa bənzəməkdədir. Ermənistan mütəxəssisləri bu qəribə olayın səbəbini dəqiq izah edə bilmirlər.**



# Ermənilər Sevana nə status istəyirlər - UNESCO-nu yeni oyuna çəkmək planı...

## *Məhərrəm Zülfüqarlı: "Mədəni irsin qorunması adı altında UNESCO ilə əlaqələrin yaradılması müəyyən məqsədlərə hesablanıb"*

Biri deyir, yüksək temperaturla əlaqədar hansısa su bitkisinin çoxalmasıyla bağlıdır, digəri deyir, haradansa axıdılan süni tullantılar səbəb olur, o biri isə bunu Sevanda balıqların azalmasıyla əlaqələndirir.

Bu arada, Ermənistanın ətraf mühit naziri Erik Qriqoryan Sevanda sözügedən prosesləri obyektiv və subyektiv səbəblərlə əlaqələndirib. Onun fikrincə, Sevana kanalizasiya suları, kimyəvi tərkibli sular axıdılır. Obyektiv səbəbi isə ekologiya ilə əlaqələndirib. O hesab edir ki, iyun ayında kəskin isti temperatur və küləklər buxarlanmanı artırıb: "İndi əsas şey diaqnozdur. Artıq hansı ərazinin təmizlənməsi lazım olduğunu hesablayırıq və 2-3 il içində su səviyyəsi artacaq. Biz suyun istifadəsini minimuma endirəcəyik".

Ən qəribəsi odur ki, Qriqoryan erməni tərəfinin UNESCO-ya Sevana status vermək təklifi ilə müraciət etdiyini bildirib. Erməni nazir belə bir müraciətin hansı məqsədlə edildiyinin mahiyyətini açmayıb.

Maraqlıdır, Ermənistanın belə bir müraciət etməkdə məqsədi nədir? UNESCO-dan pul qoparmaq istəyirlər, yoxsa digər məqsədləri var?

**Məsələyə münasibət bildirən tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu müraciəti etməkdə ermənilərin bir neçə məqsədi var:** "Əvvəla ermənilər tarixən saxtakar olublar. Mədəni irsin qorunması adı altında UNESCO ilə əlaqələrin yaradılması müəyyən məqsədlərə hesablanıb. Belə bir rəy yaratmağa çalışırlar ki, guya bunlar mədəni abidələri qorumağa çalışırlar. Özlərini mədəni irsin xilaskarı kimi təqdim etməyə çalışırlar. Ancaq faktlar sübut edir ki, ermənilər harada yaşayıblarsa, oradakı mədəniyyət abidələrini öz adlarına çıxarmağa çalışıblar. Yaxud da digər ölkələrn mədəniyyət abidələrini dağıdırlar. Məsələn, Azərbaycanın mədəniyyət abidələrini dağıtmaqla ad çıxarıblar. Abidələr üzərində işarələri dəyişərək öz adlarına çıxarırlar.

> *"Bu minvalla pul qoparmaq istəyirlər ki, guya gölü çirklənməkdən xilas edəcəklər"*

Digər bu kimi saxtakarlıqlarla məşğul olublar. İndi də həmin prosesi davam etdirirlər. Normal ağlı başında olan insan buna getməz. Bütün bunlarla yanaşı, erməni tərəfinin UNESCO-ya Sevana status verməklə bağlı müraciət etməsinin arxasında pul qoparmaq niyyəti də dayanır. Bu minvalla, pul qoparmaq istəyirlər ki, guya gölü çirklənməkdən xilas edəcəklər. Nəzərə almaq lazımdır ki, status olanda bu kimi məsələlərə yol açılır".

*Vidadi ORDAHALLI*

# Paşinyanın Trampa təbrik məktubunda düzüb-qoşduğu "demokratiya nağılının" pərdəarxası...

**Ermənistan Baş naziri Nikol Paşinyan Müstəqillik günü münasibətilə Birləşmiş Ştatlar Prezidenti Donald Trampa təbrik məktubu göndərib. Paşinyan məktubda ABŞ-ın bu illər ərzində Ermənistana etdiyi yardımı yüksək dəyərləndirib.**

### *Yeganə Hacıyeva: "Hakimiyyətinin ilk günlərindən həbslər və təzyiqlər vasitəsilə..."*

Ermənistan hökumətinin başçısının sözlərinə görə, bu yardım həmişə Ermənistanın inkişafı üçün ciddi əhəmiyyətə malik olub.

Baş nazir hesab edir ki, bundan sonra da ABŞ-la əməkdaşlıq guya Ermənistanda başladılan islahatları daha tez və asan həyata keçirməyə imkan verəcək, nəticədə respublikada demokratiyanın təsdiqlənməsi dönməz olacaq.

Paşinyan məktubunda, həmçinin, ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında əhəmiyyətli rolunu vurğulayıb.

O ümid edir ki, regionda sabitlik və təhlükəsizliyin lehinə birgə səylər vasitəsilə problemin həllinə nail olmaq mümkün olacaq.

Paşinyanın məktubunda diqqətçəkən məqamlardan biri də onun Ermənistandakı mühitlə bağlı Trampda formalaşdırmaq istədiyi yanlış rəydir. O qeyd edir ki, guya son ildə Ermənistanda tam demokratik üsulla yeni hakimiyyət formalaşdırılıb, söz və mətbuat azadlığı sahəsində mühüm addımlar atılıb. Bir sözlə, Paşinyan vəziyyəti Trampa "ideal demokratiya" modeli kimi təqdim etməyə çalışır. Ancaq biz bilirik ki, Ermənistanda vəziyyət çox acınacaqlıdır və hər hansı demokratiyadan danışmağa dəyməz. Belə olan təqdirdə, Paşinyanın Trampa yalnız demokratiya təsəvvürü yaratmasının arxasında hansı məqamlar dayana bilər?

**Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, saxtakarlıq, ümumilikdə, Ermənistan hökumətləri üçün həmişə xarakterik olub və proseslərin, tarixin, danışıqların saxtalaşdırılması erməni diplomatiyasının ana xəttini təşkil edir:** "Paşinyan hökuməti istər daxili, istərsə də auditoriya üçün nəzərdə tutulan məlumatların saxtalaşdırılması ilə erməni cəmiyyətini, Ermənistan hökumətinin əməkdaşlıq etdiyi dövlətləri, beynəlxalq təşkilatları aldatmaq təcrübəsini geniş tətbiq edir və hətta bunu öz sələflərindən daha uğurla həyata keçirməsini söyləyə bilərik. Məsələn, son aylarda yeni hökumətin ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonla telefon danışığının detallarının dəyişdirilməsi, Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinlə apardığı telefon danışığının saxtalaşdırılması, Rusiya Prezidentinin köməkçisi Yuri Uşakovun KTMT sammiti ilə bağlı bəyanatının dəyişdirilməsi və s. kimi detalların saxtalaşdırılmasını nümunə göstərə bilərik. Bu sıraya bir neçə gün öncə mediaya sızan Nikol Paşinyanın bu ilin may ayında NATO-nun baş katibi Yens Stoltenbergə yazdığı əməkdaşlıq təklifi mövzulu məktubun mövcudluğunun təkzibi faktını da əlavə etsək, onda Ermənistanın yeni hakimiyyətinin belə ciddi mövzular ətrafında saxtakarlıq hallarının mövcudluğu faktı aydın olur ".



*"Ölkə daxilində guya ki, demokratik institutların qurulması yönündə işlərin davam etdirilməsi adı altında..."*

Politoloqun sözlərinə görə, bu günlərdə Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ-ın Müstəqillik Günü münasibətilə bu ölkənin Prezidenti Donald Trampa ünvanladığı məktubu da bu xüsusda növbəti nümunə adlandıra bilərik: "Belə ki, Nikol Paşinyan Müstəqillik Günü münasibətilə Donald Trampa ünvanladığı məktubda hər iki dövlətin birgə səyi ilə regionun sabitliyi və təhlükəsizliyi naminə Dağlıq Qarabağ konfliktinin dinc yolla həllinə nail olmaq və konfliktin tənzimlənməsində ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ-ın rolunun əhəmiyyəti haqqında qeydlər gedib. Mütəmadi olaraq Dağlıq Qarabağ danışıqları ətrafında ATƏT-in Minsk Qrupu çərçivəsində əldə olunmuş razılaşmalara zidd, problemin həllində tərəflərin razılaşdırdığı bəndlərin pozulması ilə müşayiət olunan, yenilənmiş Madrid prinsiplərinin şübhə altına alınması anlamına gələn mövqe sərgiləyən, təkcə Azərbaycanı deyil, həmçinin, regionda dayanıqlı sülhün və inkişafın bərqərar olması üçün çalışan bütün maraqlı tərəflər və nizamlayıcı missiya daşıyan beynəlxalq qurumların narahatlığına səbəb olmuş açıqlamaların müəllifi, oğlunu işğal olunmuş Azərbaycan ərazilərində hərbi xidmətə göndərən Nikol Paşinyanın məktubundakı bu qeydlər istər Baş nazir və ya siyasətçi kimi onun, istərsə də rəhbərlik etdiyi hökumətin saxtakar xislətindən xəbər verir. Məktubda təhrif kimi diqqətçəkən ikinci məqam, əlbəttə, Nikol Paşinyanın yeni Ermənistan hökuməti və onun müşayiəti ilə demokratik təsisatların oturuşması prosesi haqqında qeydidir ki, bu da tamamilə yalan və təhrif olunmuş mövqedir. Çünki məhz Nikol Paşinyanın birbaşa rəhbərliyi və komandasının müşayiəti ilə ölkənin qanunverici və icraedici orqanlarını ələ keçirmiş yeni hökumət seçkilərdə hüquqi dövlətin idarəetmə prinsipinin nüvəsi olan siyasi plüralizmə zidd olaraq, parlament fraksiyalarını seçkidə öz namizədini irəli sürməmək haqqında iltizam verməyə məcbur etmiş, hakimiyyətinin ilk günlərindən həbslər və təzyiqlər vasitəsilə siyasi və iqtisadi opponentlərini zərərsizləşdirmək siyasəti yürütmüş, siyasi opponentlərini həbs etməklə seçki marafonundan kənarlaşdırmaq istiqamətində sistemli fəaliyyət aparıb.

Ölkədə korrupsiyaya qarşı mübarizə, yeni vergi islahatları adı altında rəqib siyasi qrupların iqtisadi rıçaqlarını sıradan çıxarmış və ən əsası, ölkədə iqtisadi resursların və mülkiyyətin yeni və qanunsuz bölüşdürülməsi istiqamətində sistemli fəaliyyət göstərən və bu "islahatlar"da əsas hədəf olaraq keçmiş hakim klanın nüfuzlu iqtisadi və siyasi simalarını "zərərsizləşdirmə" siyasəti yürüdülür" .

Ekspertin sözlərinə görə, ABŞ-ın Müstəqillik Günü münasibətilə bu ölkənin Prezidenti Donald Trampa ünvanladığı məktubda Nikol Paşınyanın yeni Ermənistan hökuməti və onun müşayiəti ilə demokratik təsisatların oturuşması prosesi haqqında qeydi bir neçə məqsədə xidmət edir. Birinci və ən əsası, bu qeyd adına hər nə qədər də "məxməri inqilab" deyilsə də, reallıqda küçə iğtişaşları ilə leğitim hökuməti devirərək hakimiyyətə gəlmiş və sələflərindən heç nə ilə fərqlənməyən Paşinyanın və hökumətinin siyasi legitimliyinin lobbiçiliyinə xidmət edir. Çünki korrupsiyaya qarşı mübarizə şüarları altında hakimiyyətə gələn Ermənistanın yeni Baş naziri Nikol Paşınyanın yaratdığı və həyat yoldaşı tərəfindən idarə olunan korrupsiya sxemi üzrə müxtəlif fondlar adı altında öz siyasi rəqibləri və devirdiyi hökumətin nüfuzlu simalarından rüşvət alması, korrupsiya faktlarının mövcudluğu Ermənistanda istər daxili auditoriya, istərsə də xarici tərəfdaşlarda bu istiqamətdə suallar hər gün daha qabarmaqdadır.

Digər tərəfdən, Ermənistanın guya demokratik tərəqqi yolunda irəliləməsinə ABŞ-dan dəstək və ölkə daxilində guya ki, demokratik institutların qurulması yönündə işlərin davam etdirilməsi adı altında ABŞ-dan alınan maliyyə yardımlarının davamlılığı və bu vəsaitlərin məbləğinin artırılması məqsədinə xidmət edir. Bu isə Ermənistan üçün həyati əhəmiyyətli məqamdır və iqtisadiyyatı tamamilə məhv olmuş Ermənistanın iqtisadi dayanaqlığının təminatında lobbi xətti ilə xaricdən cəlb olunan ianələrin yükü əvəzedilməzdir".

***Məhəmmədəli QƏRİBLİ***

## Putin NATO-nu Liviyanın dövlət sistemini məhv etməkdə ittiham etdi - "Nəticəni görürük. Xaos..."

**Rusiya Prezidenti Vladimir Putin Liviyadakı mövcud vəziyyətə görə, NATO-nu günahlandırıb.**



Baki-xeber.com xəbər verir ki, Putin İtaliya Baş naziri Cuzeppe Konte ilə görüşündə NATO-nun Liviyadakı dövlət sistemini məhv etdiyini deyib.

"Bu gün Liviyada yaşananlar haqqında danışmazdan əvvəl, bunun necə və nə üçün başladığını bilmək lazımdır. Liviya dövlətini məhv edən NATO qərarı idi. Nəticəni görürük. Xaos... Ölkədə silahlı qrupların qarşıdurması gedir.

Biz ən qısa müddətdə atəşkəs elan edilməsini və tərəflər arasında dialoq başladılmasını istəyirik" - Rusiya Prezidenti deyib.

**ABŞ və İran arasında gərginliyin artması fonunda region ölkələri, xüsusən də İsrail və bəzi ərəb ölkələri tərəfindən Tehrana qarşı aktiv hərbi hazırlıq müşahidə olunur. ABŞ İranın uranı normadan artıq həddə zənginləşdirməyə başlaması fonunda bu ölkəyə hərbi zərbələr endirilməsini yenidən gündəmə gətirib.**

# Qonşuluğumuzda dəhşətli savaşa doğru daha bir addım atıldı - ABŞ-ın Yaxın Şərqdə 36 bazası İranın müşahidəsi altında...

İran prezidenti Həsən Ruhaninin uranın zənginləşdirilməsi ilə bağlı məhdudiyyətin tam olaraq aradan qaldırıla biləcəyi barədə xəbərdarlığına da onun ABŞ-dan olan həmkarı Donald Tramp sərt reaksiya verib: "İran yeni xəbərdarlıq etdi. Ruhani nüvə razılaşması olmayacağı təqdirdə uranı zənginləşdirəcəklərini dedi. Bu təhdidlər geri qayıdıb sizi sanca bilər".

İran xarici işlər naziri Məhəmməd Cavad Zərif isə bu fonda vurğulayıb ki, Tehran ABŞ-ın basqısına tabe olmayacaq. O, Vaşinqtonu iranlıları heç vaxt hədələməməyə və İrana hörmət göstərməyə çağırıb. İran iki həftə əvvəl Hörmüz boğazı üzərində ABŞ pilotsuzunu vurandan sonra Vaşinqton və Tehran arasında kəskinləşən münaqişə fonunda İslam İnqilabı Keşikçiləri Korpusunun Xatəm əl-Ənbiyadakı qərargahının rəisi, general-mayor Qulaməli Rəşid bildirib ki, İran silahlı gücləri düşmənin İran adaları, dəniz, quru və hava sərhədlərinə qarşı istənilən təcavüzünə sarsıdıcı zərbə endirməyə hazırdır. Onun sözlərinə görə, ABŞ-ın Yaxın Şərq bölgəsindəki 36 hərbi bazasının hamısı İranın müşahidəsi altındadır.




Bundan əlavə, İran parlamentinin Milli Təhlükəsizlik Məsələləri üzrə Komitəsinin rəhbəri Möcab Zonnur vurğulayıb ki, ABŞ İrana hücum edərsə, ölkəsi İsrailə qarşı hərbi əməliyyatlar başladacaq. Zonnur bildirib ki, Birləşmiş Ştatlar İrana hücum etsə, İsrail 30 dəqiqə tab gətirə bilməyəcək. O, İranın ağır dağıdıcı silah arsenalının olduğunu da əlavə edib. İsrail xarici işlər naziri İsrail Katz isə cavab olaraq bəyan edib ki, ölkəsi İranla baş verə biləcək müharibəyə hərbi cəhətdən hər zaman hazırdır: "İranın etdiyi səhvlər onu qırmızı xəttə, yeni savaşa apara bilər. Bu səbəbdən müharibə variantını daim gündəmdə saxlamalıyıq. İsrail özünü istənilən ssenariyə qarşı hazırlayır". Baş verənlərlə bağlı Rusiyanın "Nezavisimaya gazeta" nəşri yazır ki, əslində, yaxın tezlikdə İrana qarşı dağıdıcı savaşın başlanmasına intensiv hazırlıq gedir: "İsrail İslam Respublikasına qarşı hərbi əməliyyatlara hazırlaşır. Yəhudi dövlətinin mətbuatı ABŞ, İsrail və Böyük Britaniya Hərbi Hava Qüvvələrinə məxsus çoxfunksiyalı beşinci nəsil qırıcı-bombardmançıların Suriya və İran üzərində birgə uçuşundan xəbər verir. Bu zaman göstərilir ki, təyyarələr döyüş mühiti şəraitində qarşılıqlı fəaliyyət hazırlayır. Pentaqon əvvəllər 12 ədəd "F-22"-i Qətərdəki əl-Udəyd hərbi bazasına göndərib. Təl-Əviv Rusiya hərbçilərini bölgədə hava naviqasiyasına mane olan radioelektron mübarizə sistemindən istifadədə ittiham edib. Dəməşq ötən ilin sonunda Rusiyadan alınmış S-300 zenit raket kompleksinin istismara tam hazır olduğunu bildirir. Moskva Tehrana S-400 ZRK tədarükü imkanını istisna etmir.

İsrailin diplomatik idarəsinin başçısı Kats Qretsliyada milli təhlükəsizlik, bölgəsəl və beynəlxalq problemlər üzrə konfransda İranın Fars körfəzi ölkələrinə və İsrailə qarşı savaşa başlaya biləcəyi və qabaqlayıcı hərəkətlərə hazır olmağın gərəkdiyi haqda bəyanat verib: "Biz buna hazır olmalıyıq və İsrail Dövləti buna görə də eskalasiya zamanı qaçılmaz ssenarilərə reaksiya verməli olacağı hal üçün öz hərbi gücünü artırır". Kats SAXAL radiosunun efirində çıxış edərək söz verib ki, yəhudi dövləti "hətta təkbaşına hərəkət etməli olarsa da, İrana nüvə silahı yaratmaq imkanı verməyəcək". "Mossad"ın (İsrailin xarici kəşfiyyatı) direktoru İosif Koen bir gün qabaq həmin konfransda bütünlükdə bölgə üçün İran təhlükəsindən danışıb.

Təl-Əvivin Tehrana münasibətdə siyasəti dəyişilməz qalır və güzəşt imkanlarını nəzərdə tutmur. İsrail hökumətinin İrana qarşı sərt durmaq niyyətinin ciddiliyinə şübhə etmək lazım gəlmir. Həm də "Haaretz" nəşri hərbi qaynaqlara istinadən İsrail, Amerika və Britaniya HHQ F-35 bölmələrinin Suriya və İraq əraziləri üzərində son zamanlar həyata keçirilən birgə uçuşları haqda xəbər verir. Bəllidir ki, ABŞ-ın beşinci nəsil F-35 bombardmançılarını satdığı bütün ölkələr avtomatik şəkildə onlardan isitfadənin Birləşmiş Döyüş Proqramına qoşulur. Bu növ bütün təyyarələrin elektron kompleksləri vahid idarə sisteminə inteqrasiya olunmaq imkanını nəzərdə tutur. Britaniya Kral HHQ-nin altı F-35B qırıcısı mayda Kiprə "Akrotiri" bazasına gəlib. Onlar "İldırımsürətli şəfəq" əməliyyatı çərçivəsində hərəkət edirlər. Birləşmiş Krallığın Müdafiə Nazirliyinin inandırmalarına görə, Britaniya F-35-ləri artıq ümumi uçuşu 225 saat olan 95 uçuş edib. İsrailin beşinci nəsil qırıcı-bombardmançıları öz aerodromlarından hərəkət edir, Amerikanıkılar isə BƏƏ-də ABŞ HHQ-nin bazasında mənzillənib. Amerika mətbuatı ötən həftə 12 ədəd F-22 "görünməz" qırıcının Qətərdəki əl-Udəyd bazasına göndərildiyi haqda məlumat verib. Bu təyyarələr "hava-hava" sinifli döyüş sursatı ilə silahlanıb, böyük sürətlə uçur, yüksək manevrə malikdir və zərbə aviasiyasının əməliyyatını qorumaq üçün nəzərdə tutulub. F-35 çoxfunksiyalı qırıcıları "hava-səth" sinifli döyüş sursatı daşıyır, əslində, cəbhə bombardmançıları funksiyasını yerinə yetirir və F-22 ilə qoşquda (birləşmiş idarəçilik sistemi nəzərə alınmaqla) qorxunc qüvvəni təmsil edir.

Yəhudi dövlətinin hərbi idarəsi göstərir ki, beşinci nəsil təyyarələr Suriya HHM S-300 ZRK üçün görünməz olaraq qalır. Dəməşq bildirir ki, səbəblərini izah etmədən bu kompleksdən bilə-bilə istifadə etmir. Yeri gəlmişkən, İsrail hərbçiləri keçən həftə hərbi və mülki təyyarələrin naviqasiyası ilə bağlı meydana çıxan problemlər haqqında məlumat veriblər (GPS-nin işində kəsintilər müşahidə olunub). Türkiyə və Kipr üzərində səmada buna oxşar nəsə qeydə alınıb. SAXAL təmsilçiləri güman edirlər ki, buna səbəb RF HKQ-nin Hmeymim bazasında düzülmüş radioelektron mübarizə vasitələrinin qoşulması olub. Rusiya tərəfi bu ittihamları rədd edib. Tamamilə aydındır ki, Tehran "əlini yanına salıb oturmayıb" və öz ölkəsini qorumağa hazırlıq işi aparır. Tərəflər savaşa fəal hazırlıq görür və onun yaxın tezlikdə başlanması gözlənir".

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampa təbrik məktubu ünvanlayıblar.**

*"Azərbaycan müstəqil siyasət yeritdiyi üçün, bu, təbrik məktubunun məzmununda da özünü göstərir"*

# İlham Əliyevlə Paşinyanın Trampa təbrik məktublarında iki kəskin fərqli mahiyyət...

## **Ramil Hüseynov:** *"Məktubun məzmunu, bir növ, Ermənistan və onun Baş naziri barədə hardasa miskin təəssürat yaradır"*

İki ölkə başçılarının təbrik məktublarını müqayisə etdikdə çox maraqlı məqamlar ortaya çıxır. Məsələ ondadır ki, Prezident İlham Əliyevin təbrik məktubunda Azərbaycanın dünyanın, regionun enerji təminatına verdiyi fayda və bununla bağlı vermək istədiyi töhfələr ifadə olunub. Məsələn, məktubda deyilir: "Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz "Cənub Qaz Dəhlizi" layihəsi Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir".

Ancaq Paşinyanın Trampa ünvanladığı məktubun məzmununa baxdıqda məlum olur ki, Ermənistan Baş naziri ABŞ-dan nəsə qoparmaq məqsədi güdür. Təsadüfi deyil ki, Paşinyan məktubda ABŞ-ın ötən illər ərzində Ermənistana etdiyi yardımı yüksək dəyərləndirib. Onun sözlərinə görə, bu yardım həmişə Ermənistanın inkişafı üçün ciddi əhəmiyyətə malik olub. Göründüyü kimi, Paşinyan ermənilərə xas olan ənənəyə uyğun olaraq dilənçi mövqeyindən çıxış edib. Açıq-aşkar eyham vurub ki, yenə də pul verin.

Digər tərəfdən, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin regionun inkişafı üçün vacib olduğunu hesab edir. Münaqişənin həlli ilə bağlı ABŞ-ın dəstəyini lazımlı hesab edir. Ancaq Paşinyan Qarabağ üzərindən də, bir növ, alver edib Birləşmiş Ştatlardan nəsə qoparmaq, siyasi dəstək almaq məqsədi güdür. O da məlumdur ki, Paşinyan bir ara, bu minvalla, Avropanı aldatmağa səy göstərdi. Ancaq onun bu cəhdləri alınmadı. Bu səbəbdən Paşinyanın iqtisadi nöqteyi-nəzərdən Avropadan gözləntiləri özünü doğrultmadı. Məktubun məzmunundan belə görünür ki, indi Paşinyan istəyir, bu minvalla, ABŞ-ı aldatsın.

Ən nəhayət, ABŞ-la Azərbaycan arasında iqtisadi və digər parametrlərə görə böyük fərqlər var. Məlum məsələdir ki, ABŞ dünyada super güc olmaqla yanaşı, böyük dövlətdir. Ancaq Prezident İlham Əliyevin Trampa ünvanladığı məktubun mahiyyətinə baxsaq görərik ki, bu, müstəqil, suveren dövlət başçısı təəssüratı yaradır. Əsl müstəqil dövlət başçısı təsəvvürü formalaşır. Ancaq Paşinyanın məktubunda bu elementlər nəzərə çarpmır. Məktubun məzmununda Rusiyayönümlü siyasəti başqa bir tərəfə dəyişmək niyyəti var.

O baxımdan təbrik məktublarındakı mahiyyət fərqini ekspertlər necə dəyərləndirirlər?




**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bütün bunlar Ermənistanın müstəqil dövlət olmadığını açıq-aşkar ortaya qoyur:** "Azərbaycanın müstəqil siyasət yeritməsini şərtləndirən bir sıra faktorlar var. O üzdən, təbrik məktubunun məzmununda da özünü göstərir. Əvvəla Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici dövlətin hərbi bazası yoxdur. Müqayisə üçün qeyd edək ki, Rusiyanın Ermənistanda 2 hərbi bazası və bir neçə min nəfər hərbçisi var. Digər tərəfdən, Azərbaycan Cənubi Qafqazda ən önəmli strateji mövqedə yerləşməklə yanaşı, özünü iqtisadi baxımdan təmin edə bilir. İqtisadi baxımdan müstəqil siyasət yeridir. Ermənistan isə dilənir. Həmişə olduğu kimi, xarici fondlardan, ölkələrdən, erməni diasporundan pul dilənir. Hər il erməni diasporu xeyriyyə marafonları keçirir. Azərbaycan isə iqtisadi baxımdan özünü təmin etməklə yanaşı, müstəqil siyasət yeridir. Bir sıra beynəlxalq enerji və nəqliyyat layihələri Azərbaycandan keçir. Azərbaycan regionda söz sahibidir. Prezident İlham Əliyevlə hesablaşırlar. Başqa bir tərəfdən, Ermənistanla eyni hərbi, iqtisadi birlikdə təmsil olunan bəzi ölkələr belə, bu ölkə ilə hesablaşmır.

Ancaq həmin ölkələr məhz Azərbaycanla hesablaşır və ölkəmizin maraqlarını nəzərə alırlar. Məsələn, Belarusla Qazaxıstan həm KTMT-də, həm də Aİİ-də təmsil olunurlar. Ancaq bu dövlətlər Azərbaycana daha çox önəm verir, nəinki Ermənistana. Bax, budur mövcud reallıq. Bütün bunlardan çıxış etdikdə məlum olur ki, Ermənistan müstəqil olmadığı kimi, onun Baş naziri də buna uyğun təəssürat yaradır.

Paşinyanın məktubu buna əyani misaldır. Məktubun məzmunu, bir növ, Ermənistan və onun Baş naziri barədə hardasa miskin təəssürat yaradır".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Ermənistan Baş naziri Nikol Paşinyan Müstəqillik Günü münasibətilə Birləşmiş Ştatlar Prezidenti Donald Trampa təbrik məktubu göndərib. Məktubda Paşinyan ABŞ-ın ünvanına müəyyən təriflər səsləndirməklə yanaşı, erməni icmasının guya ABŞ-ın inkişafında rol oynadığını qeyd edib:**

# Paşinyandan Trampa qlobal yalan - erməni icması ABŞ-ın inkişafına 300 il töhfə verib(?)...

## **Arzuxan Əlizadə:** *"ABŞ-da 1 milyonadək erməni yaşasa da, bu o demək deyil ki, onlar yaxşı reputasiyaya malikdirlər"*



"Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin elan edilməsi dünya tarixinin gələcək gedişinə böyük təsir göstərib, azadlıq və demokratiya istəyən bir çox xalqlar üçün ilham mənbəyidir. Amerika dövlətinin erməni icmasının ABŞ-ın inkişafı və rifahına xüsusi töhfə verdiyindən və iki ölkəni birləşdirən mühüm bir körpü olmağından qürur duyuruq".

Erməni icmasının ABŞ-ın inkişafına töhfə verməsi barədə danışmaq gülüncdür. Ona görə ki, bu icma Birləşmiş Ştatların inkişafına töhfə yox, problemlər gətirib. Oradaki ermənilər terror və mafiya fəaliyyəti ilə daha çox ad çıxarıblar. ABŞ-dakı bir sıra qanunsuz işlərdə ermənilər daha fəaldırlar. ABŞ-ın Los-Anceles şəhərinin polisi 9 ermənini bank fırıldağına görə həbs edib. Erməni fırıldaqçılar "Bank of America"da 1,5 milyon dollardan çox pulu mənimsəmək üçün 331 erməni pasportundan istifadə ediblər. Doqquz fırıldaqçının hər biri bank fırıldaqları məqsədilə cinayət işbirliyində ittiham edilir. Onları 30 il həbsxana cəzası gözləyir. Onu da qeyd edək ki, bu, ermənilərin ABŞ-da ilk fırıldaqçı cinayəti deyil. Çoxsaylı belə fakt göstərmək olar. Çünki son illər ərzində ermənilərin dünya miqyasında, o cümlədən, ABŞ-da ən qatı cinayətkar qruplar yaratması adi hal alıb. Belə olan halda, Paşinyanın erməni icmasının ABŞ-a verdiyi "töhfələrdən" danışması sadəcə gülüncdür.

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, deyilənlər Paşinyanın uydurmalarıdır:**

*"Birləşmiş Ştatlardakı bir sıra cinayətkar qruplar içərisində ermənilər öndə gedir"*

"Məsələ ondadır ki, ABŞ-da 1 milyonadək erməni yaşasa da, bu o demək deyil ki, onlar yaxşı reputasiyaya malikdirlər. Düzdür, ABŞ-da mütəşəkkil erməni lobbisi mövcuddur. Ancaq erməni lobbisinin ABŞ-da güclənməsi əsasən 20-ci əsrə təsadüf edir. Bu o demək deyil ki, 300 illik müstəqillik tarixi olan ABŞ-ın inkişafına ermənilər töhfə verib. Ermənilər daha çox Kaliforniya ştatında təsir imkanlarına malikdirlər. Ancaq o da heç kəsə sirr deyil ki, ABŞ-dakı ermənilər terror fəaliyyəti ilə məşğul olublar. ABŞ-da bir sıra cinayətkar qruplar içərisində ermənilər öndə gedirlər. Dəfələrlə ABŞ vətəndaşları onların törətdiyi cinayətlərin qurbanı olublar. Erməni əsilli ABŞ vətəndaşları Yaxın Şərqdə terror fəaliyyəti ilə məşğul olurlar. Elə Kaliforniya ştatında doğulan Monte Melkonyan türklərə qarşı törədilən bir sıra terror aktlarında fəal iştirak edib. Daha sonra həmin terrorçu Dağlıq Qarabağda terror fəaliyyəti ilə məşğul olub. O, 1993-cü ilin iyununda Ağdam rayonunda Azərbaycan Ordusu tərəfindən məhv edilib. Paşinyan bunlarımı ABŞ-a töhfə hesab edir? Bax, budur reallıq".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan-Rusiya-İran-Türkiyə dördbucağındakı proseslər Qarabağ məsələsində Ermənistanı tam çökdürür...

**Bu gün dünya miqyasında, o cümlədən Cənubi Qafqazda geosiyasi vəziyyətin sürətlə dəyişməsi müşahidə edilməkdədir. Dünya siyasətinin müəyyən edilməsində mühüm rol oynayan ölkələr geosiyasi maraqlarının təmini üçün indi daha aktiv siyasət yürüdür, lazım gəldikdə güc variantından da istifadədən çəkinmirlər.**

Məhz belə vəziyyətdə geosiyasi maraqların toqquşduğu regionda yerləşən ölkələrin də daha çevik və həssas siyasət yürütməsi zəruri şərt qismində çıxış edir.

Qeyd olunanlar fonunda Cənubi Qafqaza diqqət yetirdikdə burada əsas üstünlüyün Azərbaycan tərəfdə olması dərhal diqqəti cəlb edir. Belə ki, qonşu Gürcüstan Qərb ölkələri tərəfindən dəstəklənsə də, Rusiyanın getdikcə daha sərt təzyiqləri ilə üzləşir. Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra bu ölkə, belə demək olarsa, daha çox başıqapazlı olub. İndi onu həm Rusiya, həm də Qərb əzir. Azərbaycana gəldikdə, istər Rusiya, istərsə də Qərb ölkəmizlə ticari, iqtisadi, siyasi, hərbi və digər əlaqələri paritet əsasda inkişaf etdirməkdə maraqlı tərəf qismində çıxış edir. Bütün bunlar, şübhəsiz ki, Azərbaycan diplomatiyasının mühüm uğuru hesab edilə bilər. Məhz belə şəraitdə Azərbaycanı maraqlandıran başlıca məqamlardan biri isə böyük dövlət və təşkilatlarla uğurlu əlaqələrdən istifadə edib Dağlıq Qarabağ münaqişəsinin həllini tezləşdirməkdir. Bunun üçün Ermənistana qarşı dünya miqyasında sərt təzyiq dalğasının işə salınması da əsas hədəflər sırasında yer alır.

Ermənistanın özündə də açıq etiraf edilir ki, bu gedişlə Bakı İrəvana daha sərt diplomatik zərbələr endirəcək. Bunu Rusiyanın Sülhməramlı Təşəbbüslər və Konfliktologiya İnstitutunun Direktoru Denis Denisov da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycanın həssas diplomatiyası mütləq mənada öz nəticəsini verəcək: "Bu səbəbdən artıq Ermənistanda Qarabağ münaqişəsinə dair siyasi iradə olmalı, təklif edilən qərarlar reallaşdırılmalıdır. Bu baş vermirsə, tam aydındır ki, münaqişə tərəflərindən birinin təklif edilmiş sülh planının həyata keçirilməsi üçün imkanı yoxdur. Və bu bəladır. İrəvana beynəlxalq təzyiq göstərmək lazımdır. Bu, Azərbaycanın və ATƏT-in Minsk Qrupunun vasitəçilərinin daimi mövzusu olmalıdır. Axı, söhbət özündə konkret detalları ehtiva edən nizamlama planından gedir. Ermənistanda deyə bilərlər ki, ictimai rəy, xalq nizamlanma planına qarşıdır. Lakin problemin bir neçə həll variantı var. Birincisi, ictimai rəyi lazımi tərəfə çevirmək olar. İkincisi, əvvəlcə razılaşmaları yerinə yetirmək, planı reallaşdırmaq, sonra isə qərarın qəbul edilməsinin zəruriliyini cəmiyyətə izah etməyə çalışmaq mümkündür. Üçüncüsü bütün zəruri olan şeyləri etmək və bu zaman heç kəsə heç nəyi izah etməməkdir. Ermənistan bunlara getməsə, Azərbaycanın daha sərt təzyiqləri ilə üzləşəcək. Özü də tək Azərbaycanın yox". Ekspert diqqəti ona da yönəldir ki, hazırda Azərbaycanın əsas müttəfiqi sayılan Türkiyə də regionda mövqeyini gücləndirir və bu prosesdə Ankara-Moskva əlaqələri də mühüm rol oynayır. Ümumiyyətlə isə, faktdır ki, dünya dövlətləri hazırda Cənubi Qafqazda əsas geosiyasi güc kimi Türkiyə-Azərbaycan cütlüyünü görür. Hesab edilir ki, güclü Azərbaycan və güclü Türkiyəni Ermənistan da qəbul etməlidir və İrəvanın başqa yolu yoxdur. Bunu qəbul etməsə, Ermənistanın özü bir dövlət olaraq mövcud olmaya da bilər. Denis Denisov da vurğulayır ki, belə vəziyyətdə baş nazir Nikol Paşinyan Azərbaycanla razılığa gələ bilmək üçün "Qarabağ klanı"nı məhv etməli və reallığı erməni cəmiyyətinə anlatmalıdır. Lakin Paşinyanın bunun öhdəsindən gəlib-gəlməyəcəyi məlum deyil. Bu da, təbii ki, Ermənistan rəhbərliyinin hələ də qeyri-müəyyən vəziyyətdə qalması deməkdir. Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, politoloq Sergey Markov da bu xüsusda maraqlı açıqamalar verib: "Paşinyan Qarabağda sülh istəyir, lakin daxili siyasətdə vəziyyət ona bu istiqamətdə konkret addımlar atmağa imkan vermir".

Onun sözlərinə görə, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanla razılaşmağa qorxur. "Çünki hesab edir ki, ərazilərin qaytarılması ölkədə ona qarşı sui-qəsd və çevrilişlə nəticələnəcək. Ermənistanda artıq belə presedent var. 1999-cu ildə Qarabağ məsələsinə görə parlament güllələnmişdi. Bu vəziyyət münaqişənin nizama salınması ilə bağlı danışıqlar prosesini tormozlayır. Bu fonda əsirlərin mübadiləsini ən yaxşı halda sülh simvolu hesab etmək olar. Lakin bu o demək deyil ki, tərəflər bundan sonra daha tez-tez görüşəcək və nizamasalma ilə bağlı hansısa sənədi imzalamağa başlayacaqlar. Sadəcə olaraq, bu addım yaxın vaxtlarda danışıqlar prosesində yeni təmaslara maksimal imkan yarada bilər. Mübadilə pozitiv atmosfer yaradır. Lakin yenə də vurğulayıram ki, bu, danışıqlar prosesində konkret sənədlər üzrə razılaşmaya səbəb olmayacaq". Markov hesab edir ki, Paşinyan ona müxalif olan qüvvələri neytrallaşdıra bilsə, Qarabağ məsələsində qətiyyətli addım ata bilər. Buna qədər isə ekspert Paşinyanın Azərbaycan, Türkiyə və bir sıra dünya dövlətlərinin ciddi təzyiqi altında olacağını vurğulayır. Onun sözlərinə görə, belə vəziyyət Ermənistanın ciddi problemlər altında əzilməsi deməkdir. Ekspert diqqəti ona da yönəldir ki, regionda Rusiya ilə işbirliyi sayəsində mövqeyini gücləndirən Türkiyənin inkişafının qarşısını kimsə ala bilməyəcək. Bu da, digər regionlarla yanaşı, Cənubi Qafqazda da geosiyasi aspektdə qüvvələr nisbətini dəyişir. Daha güclü Türkiyə faktını bu gedişlə hətta İrəvan belə qəbul etməli olacaq. Məhz bu şərait də birbaşa Azərbaycanın lehinə işləyən məqamlardan sayılır. Çünki Türkiyənin Azərbaycanla münasibətləri və Qarabağ münaqişəsinə yanaşma tərzi heç kimə sirr deyil. Ermənistanın sabiq iqtidar partiyası, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da etiraf edir ki, Türkiyənin regionda güclənməsi, Azərbaycanın buna şərait yaratması heç də İrəvanın lehinə deyil: "Erməni-türk əlaqələri ilə bağlı hər hansı ciddi bir müzakirə yoxdur. Qarabağ məsələsi ilə bağlı hər hansı ciddi gündəm yoxdur və hökumət açıq şəkildə göstərir ki, konsepsiyası yoxdur. Əvəzində Türkiyənin regionda güclənməsi müşahidə olunur və Azərbaycan buna lazımi şərait yaradır. Təbii ki, Türkiyə-Rusiya münasibətləri də burada öz sözünü deyir. Bunlara qarşı mövcud hakimiyyətin hansısa siyasəti yoxdur və bu da ciddi problemdir".

Onun sözlərinə görə, Ermənistan bir çox xarici problemlərə cavab verməyə və hazır olmağa məcburdur: "Hər şeydən əvvəl siyasət, strategiyalar, ideologiyalar və dəyərlər rəqabətdir. Hər bir dövlətin milli təhlükəsizlik strategiyası, iqtisadi inkişaf və xarici siyasət strategiyası olmalıdır. Ermənistan Respublikası obyektiv və subyektiv səbəblərə görə bir çox xarici problemlərə cavab verməyə və hazır olmağa məcburdur. Həm iqtisadi, həm mənəvi və həm də hərbi təhlükəsizlik baxımından təhlükəsizlik problemləri bizim üçün ən vacib məsələ olmalıdır". O qeyd edib ki, Paşinyanın baş nazir olmasından sonra Ermənistanda yaxşıya doğru heç nə dəyişməyib: "Lakin son bir ildə Paşinyanın populist hakimiyyətinin mövcudluğu şəraitində ideoloji-proqram məhz Paşinyan tərəfindən üçüncü, dördüncü plana sürükləni. Qeyd etdiyim kimi, erməni-türk əlaqələri ilə bağlı hər hansı ciddi bir müzakirə yoxdur. Ermənistan kimlərlə, necə, hansı iqtisadi modellə inkişaf etməlidir? O da yoxdur. Mənəvi və milli təhlükəsizlik baxımından da vəziyyət eynidir. Bu vəziyyətdə hər kəs gec-tez əmin olacaq ki, Paşinyan və onun komandası siyasi sistemdə lazımsızdır".

Beləliklə, real mənzərə göstərir ki, getdikcə daha da dərinləşən və genişlənən Türkiyə-Azərbaycan-Rusiya, eləcə də bu dövlətlərin İranla əlaqələri regionda Bakının mövqeyini gücləndirsə də, Ermənistanı daha zəif duruma salır. Bunların fonunda Ermənistanın heç bir real addımı gözə dəymir və o daha aciz vəziyyətə düşür. Burada Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətlə inkişaf etməsini də unutmaq olmaz. Aydındır ki, belə vəziyyət Qarabağ münaqişəsinin həllini tezləşdirmək iqtidarındadır. Yaxın Şərq və Qafqaz ölkələri üzrə rus ekspert Stanislav Tarasov da qeyd edir ki, bu durumda İrəvanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə real addımlar atması zərurətə və qaçılmaz reallığa çevrilir: "Ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırda bir çox nüansları və şərtləri var". Onun sözlərinə görə, razılaşmalar yerinə yetirilmədən cəbhə xəttində təhlükəsizliyin təmin edilməsi mümkün deyil: "Həmsədrlərin illik hesabatında "Madrid prinsipləri" təqdim edilib. Həmsədrlərin istəyində bu kimi danışıqların tez həyata keçirilməsi qeyd olunub. Prosesin bir çox nüansları və şərtləri olduğu üçün bu, sülhə fayda verə bilər. Amma Ermənistanın bu məsələ ətrafındakı şərhləri də birmənalı deyil. Aydınlaşdırmaq lazımdır ki, işğal altındakı ərazilərdəki separatçı rejim danışıqlar prosesində ayrı bir subyekt kimi nəzərdən keçirilir, yoxsa yox. Çünki Ermənistan tərəfindən müxtəlif şərhlər səsləndirilir. Ümumiyyətlə, proses bir çox nüanslara və şərtlərə malikdir. Ümid edək ki, proses sülhə fayda verəcək. Bu, Qafqazda maraqlı qüvvələr, o cümlədən Rusiya üçün də vacibdir. Məsələ sülh yolu ilə həll olunmasa, güc amili işə düşəcək. Beynəlxalq durum da bu xüsusda Azərbaycana lazımi imkanlar tanıyır". Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, regionda yaranmış vəziyyət Qarabağ münaqişəsinin də həlli baxımından yeni bir durum formalaşdırıb. Burada ümumi mənzərə Azərbaycanın lehinədir və Ermənistanın da bunu nəzərə alıb münaqişənin dinc müstəvidə həlli istiqamətində real addımlar atması lazımdır. Əks təqdirdə İrəvanı Bakının sərt zərbələri gözləyir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Manatın regional valyutaya çevrilmək şansları yeni mərhələdə...

**MDB məkanında bu gün öz sabitliyi ilə seçilən valyutalar sırasında manat xüsusi yer tutur. Hadisələrin indiki inkişaf axarı isə bu qənaətə gəlməyə əsas verir ki, manat yaxın tezlikdə artıq regional valyutaya çevrilə bilər. Çünki qonşu ölkələr manatla da Azərbaycanla ticarət etməkdə maraqlı tərəf qismində çıxış edirlər.**



Hazırda Azərbaycanın malik olduğu valyuta rezervləri və beynəlxalq bazarlarda vəziyyət ölkədə makroiqtisadi sabitliyi təmin etməyə imkan verir. Bu baxımdan manatın məzənnəsini bundan sonra da sabit saxlamaq üçün bütün imkanlar var. Elə bu da manatla ticarətə marağın artmasına rəvac verən amillərdən sayılır.

Digər tərəfdən burada nəzərə almaq lazımdır ki, Azərbaycanın qonşuluğunda yerləşən Rusiya, Türkiyə, İran kimi ölkələr getdikcə dollardan imtina edir. Digər tərəfdən ölkəmizin əsas ticarət tərəfdaşları sırasında yer alan Avropa ölkələri də artıq dolları sıradan çıxarır. Artıq Avropa daha sürətlə ABŞ dollarından asılılığı azaldır. Vaşinqtonun sanksiya təhdidlərinə baxmayaraq, Avropa İttifaqı ölkələri İrandan neft almağa davam edir. Lakin Avropa İttifaqı neftə görə dollarla yox, avro ilə ödənişlər edir. Bundan başqa, avropalılar ABŞ sanksiyalarından yan keçmək üçün "INSTEX" adlanan maliyyə əməliyyatları mexanizmindən istifadə etmək niyyətindədir. Böyük Britaniya, Fransa və Almaniya bu həftə bu sistemin işə düşdüyünü elan edib. "INSTEX" (Ticarət Mübadilələrinə Dəstək Aləti) İran və Avropa İttifaqı şirkətləri arasında pul köçürməsi olmadan malların mübadiləsinə imkan verən vasitəçi sistemdir. Bu sistemlə Tehran faktiki olaraq nefti və digər malları Avropaya göndərə biləcək. Lakin "INSTEX" bu mallara görə pulu İran banklarına deyil, İslam Respublikasına mal ixrac edən Avropa şirkətlərinə ötürəcək. İyunun 28-dən etibarən bu mexanizmdən bütün Avropa İttifaqı ölkələri istifadə edə bilir. Bir qədər sonra isə ondan digər ölkələrin şirkətləri də yararlana biləcək. Azərbaycanın Avropa İttifaqının əsas ticarət tərəfdaşı olması fonunda ölkəmizin də bu sistemdən yraralanması gündəmdədir. Özü də Avropa İttifaqı prosesdə xüsusi maraqlı tərəf kimi çıxış edir.

Yaranmış durumda Dünya Bankının iqtisadçıları dünyada dedollarlaşma prosesinin başladığını və onu artıq dayandırmağın mümkün olmadığını bəyan edir. İqtisadçı-ekspert Natiq Cəfərli isə belə vəziyyətdə regionda milli valyutalardan istifadənin genişlənməsini istisna etmir. Onun sözlərinə görə, bu məsələ dolların hegemon olduğu bir çox ölkələri narahat edir və bu anlaşılandır: "Gələcəkdə güclü regional bir valyutanın yaradılması bu məsələdə irəliləyişə nail olmağa imkan verə bilər. Güclü regional valyutanın yaradılması dollardan istifadənin getdikcə azalmasına səbəb ola bilər".

Yuxarıda qeyd olunduğu kimi, qonşu ölkələr artıq Azərbaycanla ticarəti milli valyutalar üzərindən aparmaqda maraqlı olduqlarını açıq bəyan edir. İranın xarici işlər naziri Cavad Zərif artıq bu xüsusda müvafiq açıqlamalar verib: "Biz Türkiyə, Rusiya, Çin, Azərbaycan, Hindistan və digər ölkələrlə maliyyə sazişlərinin imzalanmasına dair danışıqlar aparırıq. Bu ölkələrdən bəziləri ilə sazişlər artıq bağlanıb, digərləri ilə isə razılaşmalar, demək olar ki, əldə olunub". Məlumata görə, İran ticarəti Azərbaycanla milli valyutalar üzərindən həyata keçirmək üçün aktiv iş aparır. Eyni sözləri Rusiya və Türkiyə barəsində də demək mümkündür. Azərbaycanın həmin ölkələrlə böyük ticarət əlaqələri var. Hesab edilir ki, bu ölkələrlə ticarət milli valyutalar üzərindən həyata keçirilsə, manat regional valyutaya çevrilə bilər. Çünki rubl, lirə və riala nisbətən manatın məzənnəsi sabitdir. Bu səbəbdən özəl sektor üçün də ticarəti manat üzərindən həyata keçirmək daha sərfəli sayılır.

Avropa İttifaqı ilə də ticarət əlaqələrində milli valyutalardan, ilk növbədə avrodan istifadə həcminin artması gözlənir. Xatırladaq ki, Avropa İttifaqı dünyada ən iri neft və qaz idxalçısıdır. Ancaq bu sahə üzrə Avropa müqavilələrinin yalnız 20%-i avroda həyata keçirilir. ABŞ dolları, Avropa Komissiyasının hesabatına görə, neft, qaz və kömür idxalı zamanı haqq-hesabda əsas valyuta olaraq qalır. Bu durumda Avropa Komissiyası enerji daşıyıcılarının təchizatı üzrə müqavilələrdə avronun rolunu gücləndirmək üçün artıq hərəkətə keçib. Avropa Komissiyası qeyd edir ki, energetika ilə bağlı müqavilələrdə dolların üstünlük təşkil etməsi valyuta kurslarının dəyişməsinə görə Avropa şirkətlərini risqlərə məruz qoyur. Bundan əlavə, ABŞ-ın idxal rüsumları və kvotaları tətbiq etməsi kontekstində rəsmi Brüssel ABŞ-ın xarici ticarətdə apardığı siyasətdən də narahatdır. Həmçinin Avropa Komissiyası avronu dayanıqlı, etibarlı və hamının qəbul etdiyi valyuta hesab edir. Komissiya təkcə enerji daşıyıcı bazarından narahat deyil. O, maraqlanan tərəflərlə, kənd təsərrüfatı daxil, digər mal bazarlarında da avronun istifadəsini artırmaq niyyətindədir. Energetika üzrə avrokomissar Migel Arias Kanyete bildirib: "Enerji daşıyıcılarının idxalına dair uzunmüddətli müqavilələrimizin əksəriyyəti avro ilə bağlanmır. Bu, vəziyyətin qeyri-sabitliyindən xəbər verir və avronun dünyada oynamalı olduğu rolu əks etdirmir". Məhz bu şəraitdə Avropa İttifaqı artıq Rusiya ilə enerji sazişlərini avro ilə bağlayır. Perspektivdə analoji addımların Azərbaycanla da münasibətdə atılması istisna olunmur. Belə bir vaxtda Avropa Yenidənqurma və İnkişaf Bankının manat istiqrazları buraxmaq niyyəti isə Avropada manata da marağı artıra bilər. Bütün bunlar bir daha göstərir ki, qarşıdakı dövr ərzində manata beynəlxalq maraq artacaq.

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nın yaradılması haqqında" Fərman imzalayıb.**

# Azərbaycanda sosial məsələlər üzrə observatoriyanın maraqlı missiyası...



## *Musa Quliyev: "Əmək bazarında ildə ən azı 100 min yeni iş yeri yaradılmalıdır"*

Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində iki ay müddətində əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini, inkişaf meyllərinin öyrənilməsini və monitorinqləri həyata keçirən, bu sahələrdə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlayan, publik hüquqi şəxs statuslu Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılacaq.

Maraqlıdır, yeni yaradılan qurumun mahiyyəti nədən ibarət olacaq? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Sözügedən məsələnin mahiyyətini şərh edən millət vəkili Musa Quliyevin fikrincə, Strateji Yol Xəritəsində nəzərdə tutulan məsələlərdən biri də sosial müdafiə və əmək bazarının öyrənilməsi və gələcək perspektivlərinin müəyyənləşdirilməsidir:** "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılması vacibdir. Ona görə də Prezident İlham Əliyevin bununla bağlı fərmanını müsbət qiymətləndirirəm.

Qarşıda duran əsas məsələlərdən biri də işsizlik və məşğulluq məsələlərinin həlli ilə bağlıdır. Bütün dünyada bu məsələ problem olaraq qalır. Dünya əhalisi artır, yeni iş yerlərinin yaradılması imkanları məhdudlaşır. Müasir texnologiyaların tətbiqi işçi qüvvəsinə tələbatı azaldır, yəni ixtisarlar baş verir.

*"Bunu öyrənməkdən ötrü elmi-tədqiqat xarakterli publik hüquqi şəxsin yaradılmasına ehtiyac vardı"*

Belə bir şəraitdə elə optimal variant seçmək lazımdır ki, həm insanlar işlə təmin edilsin, həm də iqtisadiyyat inkişaf etsin.

Nəzərə almaq lazımdır ki, Azərbaycan əhalisi ildə 100-110 min nəfər artır. Əmək bazarında ildə ən azı 100 min yeni iş yeri yaradılmalıdır. Burada bağlanan iş yerlərini də nəzərə almaq lazımdır. Planlaşdırılan iş yerləri hansı istiqamət üzrə, harada açılmalıdır? Bunu öyrənməkdən ötrü elmi-tədqiqat xarakterli publik hüquqi şəxsin yaradılmasına ehtiyac vardı.

Sosial müdafiə çoxşaxəli siyasi platformadır. Burada öncədən proqnozlaşdırma, aparıcı sahədə trendlərin müəyyənləşdirilməsi və tətbiq edilməsi çox vacibdir.

Ölkədə bununla bağlı proqnozlaşdırma vacibdir. Məsələn, Azərbaycanda 5 ildən sonra pensiyaçıların, işsizlərin və s. sayının nə qədər olacağı müəyyən edilməlidir.

**Sosial müdafiə stategiyasını buna uyğun qurmaq lazımdır. Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılması çox vacib idi. Düşünürəm ki, bu həm iqtisadiyyata, həm də sosial müdafiə siyasətinə çox böyük töhfələr verəcək".**

***Vidadi ORDAHALLI***

**Son zamanlar ölkə ərazisində əkin sahələrinin biçindən sonra yandırılması hallarının artması müşahidə edilir. Yandırılan sahələrin miqyası böyüyərək bəzən əhalinin mülkiyyətinə də zərər verir. Məlumat üçün bildirək ki, ötən illərdə taxıl sahələrinin yandırılması hallarına qarşı maarifləndirici tədbirlər görülsə də, bir çox torpaq mülkiyyətçisi və fermer sahələrin yandırılmasının torpağa nə dərəcədə ziyan vurmasından xəbərsizdir.**

# Nazirlik əkin sahələrini yandıranlara qarşı nə tədbirlər görüb...



## *İmran Cümşüdov: "Əkin sahələrini yandıranlar inzibati qaydada cərimələnirlər"*

## *Nicat Nəsirli: "...bu addım aqrotexniki baxımdan düzgün deyil"*

Torpaq sahələrinin yandırılmasına qarşı dəfələrlə xəbərdarlıq edilsə də, fermerlər bu vərdişlərini hələ də davam edirlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, əkin sahələrinin yandırılması inzibati məsuliyyət yaradır. İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə əsasən, əkin yerlərinin yandırılmasına görə fiziki şəxslərin 400 manatdan 600 manatadək məbləğdə, vəzifəli şəxslərin 1500 manatdan 2000 manatadək məbləğdə və hüquqi şəxslərin 5000 manatdan 6000 manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulub. Ancaq dəfələrlə xəbərdarlıq edilməsinə və cərimələrin tətbiqinə baxmayaraq, hələ də sahələri yandıranlar var.

**Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri İmran Cümşüdovun sözlərinə görə, əkin yerinin yandırılması aqronomik baxımdan çox zərərlidir:** "Bu münbitliyin bərpa edilməsi üçün isə bir neçə il vaxt və külli miqdarda vəsait tələb olunur". İ.Cümşüdov bildirdi ki, samanı yandırmaq əvəzinə, onu xırdalayaraq torpağa vermək daha yaxşıdır. Bu, münbitliyi xeyli artırır.

Həmsöhbətimiz onu da vurğuladı ki, əkin sahələrini yandıranlar inzibati qaydada cərimələnirlər.

**Aqrar sahə üzrə ekspert Nicat Nəsirli bizimlə söhbətində qeyd etdi ki, artıq biçin prosesi başa çatmaq üzrədir, ənənəvi olaraq bəzi fermerlər biçin aparılmış sahələri növbəti səpin mövsümünə hazırlamaq üçün yandırırlar:** "Bu addım aqrotexniki baxımdan düzgün deyil. Hesablamalara görə, hər il Azərbaycanda kövşənliklərin təqribən 40 faizi yandırılır. Bu zaman meşəqoruyucu zolaqlar da yanır, çoxlu miqdarda quş, kirpi, dovşan və digər heyvanlar məhv olur. Torpağa ziyan dəyir: münbit qat məhv olur, məhsuldarlıq azalır. Sahənin yandırılmasında torpağın hər hektarında üzvi maddənin və səth qatının elə miqdarı məhv edilir ki, onun əvəz olunmasından ötrü torpağın hər hektarına təxminən 15 ton peyin verilməlidir.

Çoxları düşünür ki, kül tarlanı yaxşı gübrələyir, mineral və üzvi gübrələrə qənaət olunur. Bəzi təsərrüfatçılara elə gəlir ki, kövşənlikləri yandıraraq, ziyanvericilərin və xəstəliklərin kökünü kəsməyə kömək edir və tarlaları təmizləyir.

**Lakin bunlar yanlış fikirlərdir. Yanğın nəticəsində tarlalarda mikroblar məhv olur, torpaqda münbit qat - humus toplanması dayanır, atmosfer havası çirklənir.**

Biçin zamanı sahəyə tökülmüş bitki qalıqlarının minerallaşması nəticəsində torpaq üzvi maddələrlə zənginləşir.Ona görə yandırmaq sərfəli üsul deyil. Digər tərəfdən, bu hərəkətin məsuliyyət tərəfi də var".

***Günel CƏLİLOVA***

**Gürcüstanda yaşayan soydaşlarımızın ana dilində təhsil alması hüququ tanınsa da, Azərbaycandilli məktəblərdə dərslik problemi qalmaqdadır. Məlum olduğu kimi, Sovet dövründən başlamış, 2018-2019-cu tədris ilinə qədər Gürcüstandakı Azərbaycandilli məktəblərin dərslik problemi Azərbaycan Təhsil Nazirliyi tərəfindən həll edilirdi. Hər il, mütəmadi olaraq, Azərbaycandan Gürcüstana müxtəlif adlarda dərsliklər göndərilirdi.**

# Gürcüstandakı azərbaycanlı məktəblərini bu il dərsliklə kim təmin edəcək?

Ancaq bu ildən etibarən Gürcüstanın müvafiq qurumları Azərbaycandilli məktəblər üçün dərsliklərin Gürcüstan tərəfindən hazırlanacağını bildirirlər.

Məlumatlara görə, Gürcüstanda Azərbaycandilli məktəblərdə yeni dərsliklərin tətbiqi təxirə salınıb. Bu barədə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin yaydığı məlumatda bildirilir.

Bu ölkənin gürcüdilli məktəbləri üçün 13 fənn üzrə 34 yeni dərslik 2019-2020-ci tədris ilinə qədər nəşr olunacaq. I-IV və V-VI siniflər üçün nəzərdə tutulan dərsliklər yeni tərtibatda hazırlanıb. Dərsliklər yeni tədris ilinin başlanmasına qədər çap olunaraq bütün məktəblərə paylanacaq. Həmin dərsliklər 2020-ci ildə milli azlıqların dilinə - Azərbaycan, erməni və rus dillərinə tərcümə olunacaq. Tərcümə olunmuş dərsliklərin qeyri-gürcüdilli məktəblərdə tətbiqinə isə 2020-2021-ci tədris ilində başlanacaq.

Qeyd edək ki, Gürcüstanda qeyri-gürcüdilli məktəblərin I-VI sinifləri üçün yeni milli plana uyğun hazırlanmış dərsliklərin 2019-2020-ci tədris ili üçün nəşr olunacağı nəzərdə tutulurdu.

2019-2020-ci tədris ilində isə soydaşlarımızın hansı dərsliklərdən istifadə edəcəyi sual altındadır. Bəzi məlumatlara görə, onlar bu il hazırda əllərində olan vəsaitlərdən yararlanacaqlar.

Qeyd edilənə görə, Gürcüstan hökuməti keyfiyyətli təhsilin əlçatanlığının təmin edilməsi və dövlət dili üzrə biliklərin yaxşılaşdırılmasını vətəndaş inteqrasiyası prosesinin iki əhəmiyyətli aləti hesab edir. Ölkə qanunvericiliyinə əsasən, təhsilin bütün pillələri etnik azlıq nümayəndələri üçün əlçatandır və azlıqlar ana dillərində - Azərbaycan, erməni və rus dillərində təhsil almaq imkanları ilə təmin olunublar.

2017-ci ilin məlumatına əsasən, Gürcüstanda 82 Azərbaycandilli, 118-i erməndilli və 11 rusdilli ictimai məktəb fəaliyyət göstərib. Azərbaycan bölmələrinin olduğu məktəblərin sayı isə 33 təşkil edib.

2018-ci ilin sentyabrında Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin Təhsilin İdarə olunması üzrə İnformasiya Sistemi Mərkəzinin açıqladığı rəqəmlərə əsasən isə ölkədə Azərbaycandilli məktəblərin sayı 80, Azərbaycan bölmələrinin olduğu məktəblərin sayı isə 38-dir. Bununla yanaşı, iki özəl məktəbə Azərbaycan bölməsi açmaq hüququ verilib. Həmin təhsil müəssisələrində bölmələrin fəaliyyət göstərib-göstərməməsi məlum deyil.

Qeyd edək ki, 2010-cu ildə Gürcüstanda 124 Azərbaycandilli məktəb fəaliyyət göstərib, soydaşlarımızın doğma dillərində təhsil aldıqları təhsil ocaqlarının sayının azalması əsasən aşağıdakı səbəblərlə əlaqələndirilir: 1.Təhsilin keyfiyyətinin aşağı olması; 2. Məktəb infrastrukturunun müasir tələblərə cavab verməməsi, bəzi məktəblərin, xüsusən də kənd məktəblərinin qəzalı vəziyyətdə olması; 3. Peşəkar müəllim kadrlarının çatışmazlığı.

Azərbaycandilli məktəblərin müəllim heyətinin böyük əksəriyyətini təqaüd yaşına çatanlar təşkil edir. Məktəb direktoru vəzifəsini əsasən etnik gürcülər, 15-ə yaxın məktəbdə isə azərbaycanlılar tutur.




## Kamran Əsədov: "Azərbaycan tərəfindən göndərilən dərsliklər Gürcüstanın təhsil standartlarına və strategiyasına uyğun deyil"

**Tanınmış təhsil eksperti Kamran Əsədov qeyd edir ki, Gürcüstanda orta təhsil 12 ildir və bu 12 il ərzində hər gün orta məktəbdə gürcü dili tədris edilir, dərs saatları 15-20 il bundan əvvəlki şəraitlə müqayisədə kifayət qədər artırılıb.**

### "Azərbaycanda 12-ci sinif üçün nəzərdə tutulmuş dərsliklər yoxdur"

"Gürcüstanda 1-ci sinfə gedən bütün şagirdlərə, şəhərdə, ucqar kənddə yaşamasından asılı olmayaraq, dövlət kompyuter (netbook) verir. Xüsusi treninq keçmiş gürcü dili müəllimləri orta məktəblərə gürcü dili tədrisini təkmilləşdirmək üçün göndərilir.

Əlbəttə, bu gün dövlətin bu səylərinin nəticəsi var, gürcü dilini gürcüdən də gözəl bilən gənclərimiz var, imtahanlarda gürcüdən də yaxşı nəticə əldə edən gənclərimiz həddindən artıq çoxdur, gürcü dilində danışanların sayı gənclər arasında ilbəil artır.

Azərbaycan məktəblərinin saxlanması, ana dilində təhsil hava-su qədər vacibdir. Fədakar ziyalımız Həsən bəy Zərdabi deyib: "Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir".

2017-2018-ci tədris ilinin sonunda Azərbaycandilli məktəblərdə təhsil alan şagirdlərin sayı 15 150 nəfər təşkil edib. Gürcüstanda fəaliyyət göstərən Azərbaycandilli ictimai məktəblərin sayı barədə:

Sovet dövründə Gürcüstanda 183 Azərbaycandilli məktəb olub. 1999-cu il statistikasına görə, Azərbaycandilli məktəblərin sayı 167-dək azalıb. 2010-cu ildə Gürcüstanda 124 Azərbaycandilli məktəb olub, hazırda isə Azərbaycandilli məktəblərin sayı 80-dir. Hazırda Gürcüstan universitetlərində Azərbaycandilli məktəblər üçün müəllim hazırlayan fakültələr yoxdur. Azərbaycan təhsil müəssisələrinə isə borçalılar qəbul oluna bilmirlər".

Bunun bir səbəbinin fərqli tədris proqramı olması olduğunu deyən K.Əsədovun sözlərinə görə, əsas problem isə Azərbaycan təhsil sistemində Gürcüstandakı azərbaycanlılara qarşı yaradılan süni problemlərdir. O qeyd etdi ki, dünyada qəbul olunmuş beynəlxalq qanunlar var ki, xarici ölkə vətəndaşları başqa ölkə universitetlərinə qəbul imtahanı verməyərək müsahibə yolu ilə tələbə adını qazanırlar. "Lakin oradan gələn azərbaycanlılar xarici ölkə vətəndaşı kimi dəyərləndirilmir və qəbul imtahanlarına cəlb edilirlər. Gürcüstanda Azərbaycan dilində təhsil verən müəllimlərin olmaması yaxın gələcəkdə Azərbaycandilli məktəblərin yox olmasına gətirib çıxaracaq.

Ana dilində təhsil verən müəllimlər qocalır, getgedə sayları azalır. Onların yerinə isə heç bir fənn üzrə gənc kadr meydana çıxmır. Gürcüstandakı soydaşlarımız Azərbaycanda universitetə qəbul olunduqdan sonra xarici vətəndaş olduqları əsas gətirilərək, ən yüksək bal yığsa belə, yalnız ödənişli təhsil ala bilirlər. Bunun da nəticəsi olaraq Gürcüstan azərbaycanlıları Azərbaycanın universitetlərində, demək olar ki, təmsil olunmurlar. Apardığımız araşdırmalar göstərdi ki, Gürcüstandakı Azərbaycan məktəblərində müəllimlər və zəruri dərsliklər çatışmır. Azərbaycan tərəfinin Gürcüstana təqdim etdiyi dərsliklər ölkənin təhsil sisteminin standartlarına uyğun deyil. Gürcüstanda orta təhsil sistemi 12 ildir, Azərbaycanda isə 11 illik təhsil sistemi davam edir. Bu o deməkdir ki, Azərbaycanda 12-ci sinif üçün nəzərdə tutulmuş dərsliklər yoxdur. Azərbaycandilli məktəblər üçün Azərbaycanın göndərdiyi dərsliklər məktəblərdə təhsil prosesinə mənfi təsir göstərir.

Azərbaycan tərəfindən göndərilən dərsliklər Gürcüstanın təhsil standartlarına və strategiyasına uyğun deyil, bu səbəbdən də bu dərslikləri Gürcüstan özü hazırlayacaq. Gürcüstan tərəfindən dərsliklər üzrə müəyyən edilmiş meyarlar Azərbaycan tərəfindən yerinə yetirilmir. Eyni zamanda, dərsliklərin keyfiyyətində də ciddi nöqsanlar var. Gürcüstanda çap olunan hər bir dərslikdə informasiya ağırlığı mövcuddur. Azərbaycan isə eynilə bizim öz şagirdlərimiz üçün nəşr etdiyi dərslikləri gürcü dilinə tərcümə edib ora yollayırdı. Problemin kökündə o durur ki, Gürcüstan universitetlərində Azərbaycandilli məktəblər üçün müəllim hazırlayan fakültələr yoxdur. Əgər olsaydı, bu gün orada yaşayan azərbaycanlı ziyalılar daha yararlı dərsliklər hazırlayardılar" - deyə K.Əsədov vurğuladı.

***İradə SARIYEVA***

**Məlumdur ki, iyunun 15-dən yeni çimərlik mövsümü başlayıb. Çimərlik mövsümü başlayan gündən etibarən mütəmadi olaraq aidiyyəti qurumlar tərəfindən monitorinq keçirilir. Aparılan monitorinq zamanı istifadəyə yararlı və yararsız çimərliklərin adı ictimaiyyətə açıqlanır.**




# Çirkli çimərliklər rəsmən elan olunur, ancaq giriş məhdudlaşdırılmır...

***Telman Zeynalov:*** *"Çirkli çimərliklərə əhalinin girişi dayandırılmalıdır"*

***Adil Qeybulla:*** *"Xüsusi qurumlar, həmçinin, özəl çimərliklərin rəhbərləri dənizin dibinə də nəzarət etməlidirlər"*

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları tərəfindən 28 iyun-4 iyul tarixlərində çimərlik ərazilərində növbəti monitorinqlər keçirilib, dəniz suyundan nümunələr götürülüb, mikrobioloji təhlillər aparılıb.

İdarənin əməkdaşı Nərmin Babaşova jurnalistlərə bildirib ki, analizlərin nəticələrinə görə, Novxanı, Türkan, Hövsan, Şıx, Sahil və Sumqayıt çimərliklərinin dəniz suyu mikrobioloji baxımdan çirkli olduğundan, çimərlik üçün qənaətbəxş deyil. Qeyd edək ki, budəfəki analizlərin nəticələrinə görə, Novxanı çimərliyi də çirkli hesab olunur.

ETSN-nin rəsmisi Xəzərin şimal və cənub bölgələrində də monitorinqlərin aparıldığını qeyd edib. O bildirib ki, əvvəlki nəticələrdən fərqli olaraq, bu dəfə yalnız Nabran deyil, Xaçmazın Yalama, Seyidlər, İstisu (Müqtədir), Lənkəran və Astara rayonları ərazisindəki çimərliklərin dəniz suyu da mikrobioloji baxımdan çirklidir, ona görə də çimərlik üçün qənaətbəxş deyil.

Qeyd edək ki, istifadəyə yararsız çimərliklərin adı mütəmadi olaraq ictimaiyyətə açıqlanır. Ancaq buna baxmayaraq, hələ də həmin çimərliklər istirahət etmək istəyənlər üçün açıqdır. O çimərliklər istifadəyə yararsız, çirklidirsə, onların fəaliyyətinə qadağa qoyulsun. Nə vaxt çimərlik sahibi həmin ərazini yararlı vəziyyətə gətirsə, o zaman həmin istirahət mərkəzi əhalinin ixtiyarına verilər.

**Ekoloq Telman Zeynalov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, çimərliklərdəki problemlər həllini tapmadığından, bu sahənin də inkişafı ləngiyir.** O bildirir ki, çimərliklərlə bağlı sərəncamlar icra olunmur: "Dəniz suyu neft, məişət və çirkab suları, zibil və kənd təsərrüfatında istifadə olunan kimyəvi zəhərli tullantılarla çirkləndirilir. Çirkli çimərliklərin siyahısı ölkə ictimaiyyətinə açıqlanıb. İstifadəyə yararlı çimərliklər isə pullu çimərliklərdir. Belə olan halda, əhali istifadəyə yararsız çimərliklərə üz tutur. Hərçənd, o çimərliklər də pulludur".

Həmsöhbətimiz hesab edir ki, çirkli çimərliklərə əhalinin girişi dayandırılmalıdır. Belə olan halda, çimərlik sahibi məcbur olub həmin ərazini xüsusi qurğular vasitəsilə təmizləyib, istifadəyə yararlı vəziyyətə salacaq.

**Professor, həkim-ekspert Adil Qeybulla bildirdi ki, Xəzər dənizinin qabarma və çəkilmə prosesləri olduğu üçün, özünü təmizləyə bilir.** Buna görə də dənizdə hər hansı infeksiyaya yoluxma təhlükəsi yoxdur. Lakin dənizin hər hansı yerində axıdılan tullantı suları və sair müxtəlif xəstəliklər yarada bilər. Çimərlik üçün ayrılmış yerlərdə suyun kolititri və kolindeksi yoxlanır: "Bu da həmin ərazilərdə bağırsaq çöplərinin konsentrasiyasının müəyyən edilməsi üçündür. Kolititr və kolindeksin içməli su səviyyəsində olduğu yerlərdə bakterial yoluxma təhlükəsi olmur. Dənizin duzlu olması özü də antibakterial təsir göstərir, bakteriyaları öldürmə xüsusiyyəti var. Beləliklə, bakteriya əsasən şirin su hövzələrində yaranır. Çünki bu suların axarlığı yoxdur və nəticədə mikroblar qalaraq daha da çoxalır. Beləliklə, dənizi biz özümüz də təmiz saxlamalıyıq. Dəfələrlə şahidi oluruq ki, çimərliyə gedən insanların bir qismi hansısa istehlak məhsullarını və yaxud qida qalıntılarını dənizə atır. Həmçinin, plastik qabları da suya atırlar, halbuki, bu cür qabların suda olması insan orqanizmi üçün çox ziyandır.

**Xüsusi qurumlar, həmçinin, özəl çimərliklərin rəhbərləri dənizin dibinə də nəzarət etməlidirlər. Çünki şahidi oluruq ki, bəzən suda çimən şəxslərin ayaqları dənizin dibindəki tullantıya dolaşır və insan boğulur".**

*Günel CƏLİLOVA*

**XX əsrin ortalarında dünyada xolesterinlə mübarizəyə başlandı. Kərə yağı, yağlı xama, qaymaq kimi məhsullar "ziyanlı" hesab edildi. Kərə yağı hər yerdə bitki yağları və marqarinlə əvəz olunmağa başlandı. Heyvan mənşəli yağlarda xolesterolun yüksək olması səbəb gətirilərək əhali daha çox trans (duru) yağlardan istifadə etməyə başladı.**



# Duru məişət yağlarında sonsuzluq yaratmaq potensialı...

***Eyyub Hüseynov:*** *"Bir-birilə rəqabət aparan istehsalçılar qarşı tərəfin məhsulunun ziyanlı olduğunu uyduraraq satışına xələl gətirmək istəyirlər"*

*"...bu yağları qızartma yeməklərdə istifadə etmək olmaz..."*

Qeyd edək ki, trans yağlar təbii keyfiyyətləri pozulmuş bitki yağları sayılır. Bu günlərdə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Qida Təhlükəsizliyi İnstitutu tərəfindən dünyada aparılan elmi araşdırmalara istinad edilərək, trans yağların insan orqanizmi üçün təsirlərinin elmi əsaslarla risq qiymətləndirməsi aparılıb və həmin araşdırmalar nəticəsində bu yağların insan sağlamlığına mənfi təsiri öz təsdiqini tapıb. Agentliyin məlumatında qeyd olunur ki, trans yağları yaddaş pozuntusu və süd vəzisi xəstəliklərini inkişaf etdirir, hər iki cinsdə sonsuzluq yaradır, immun sisteminə mənfi təsir göstərir.

**Məsələ ilə bağlı fikir bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, ümumiyyətlə, insanlar qida rasionunda yağdan balanslaşdırılmış şəkildə istifadə etməlidirlər:** "Həm kərə, həm də bitki yağlarından istifadə etmək lazımdır. Hər ikisinin də keyfiyyəti və zərərləri ola bilər. Bir şərtlə ki, bitki yağlarının və kərə yağının düzgün saxlanma və istifadə qaydalarına əməl etsinlər.

Bu qaydalara düzgün əməl edilsə, ziyanı olmaz. Elə yağlar olur ki, onlar ancaq soyuq qidalar üçün istifadə edilir, yəni salatlar üçün. Bu yağları qızartma yeməklərdə istifadə etmək olmaz".

Birlik sədrinin sözlərinə görə, həqiqətən də bitki yağlarının həddən artıq temperaturda isidilməsi onların kanserogen risqini artırır: "Yağ çox isidildiyində tərkibindəki zəhərli elementlərin miqdarı artır və bu da xərçəng risqini artırır.

Ən faydalısı zeytun yağıdır. Yerli zeytun yağı almağa üstünlük versələr, daha yaxşı olar".

**Həmsöhbətimiz onu da vurğuladı ki, yağ istehsalçıları arasında rəqabət var: "Bir-birilə rəqabət aparan istehsalçılar qarşı tərəfin məhsulunun ziyanlı olduğunu uyduraraq satışına xələl gətirmək istəyirlər".**

*Günel CƏLİLOVA*

# Bakı kəndləri - tarixlərə şahid qədim Qala kəndi...

*"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir".*

***Heydər Əliyev***

**Dünyanın bir çox xalqları zeytunu "həyat ağacı", "ağaclar padişahı"adlandırır. Qədim romalılar bu ağaca müdriklik nişanəsi kimi baxmışlar. Tarixi sənədlər göstərir ki, hələ b.e.ə. Kür-Araz vadisində, həmçinin Abşeronda zeytun yetişdirilib. Ümumiyyətlə, Abşeron zeytunçuluğun vətənlərindən sayılır. Respublikada 3 növ zeytun yetişdilir: Azərbaycan zeytunu, armudu zeytun və şirin zeytun. Bu yerli növ zeytunlar həmçinin Türkmənstan və Əfqanstanda da becərilir.**

*(Əvvəli ötən saylarımızda)*

Zeytunun quru çəkisinin 80%-i yağdır. O, bitki yağları içərisində ən keyfiyyətlisi sayılır.1 kq zeytun tutmasının qidalılığı 2050-2380 kkal-a bərabərdir. Ta qədim dövrlərdən Abşeronda, xüsusən də Qala kəndində zeytun əkilib. Abşeronun "yaşıl qızılı" adlandırılan zeytunçuluğu inkişaf etdirmək məqsədilə 1988-ci ildə "Zeytun" aqrofirması yaradılıb. 1,2,3 nömrəli zeytunçuluq sovxozu Hövsan, Zığ, Qala kəndlərini əhatə edirdi. Bu unudulmaqda olan bitkinin Abşeronda, o cümlədən Qala kəndində becərilməsi burada mədəni irs abidələrini qorumaq və təbliğ etməklə yanaşı, dünya turizmində öncül sahələrdən biri olan aqroturizmin inkişafına kömək etmiş olardı.

Maldarlıq. Min illər boyu Abşeron əhalisinin əsas təsərrüfat məşğuliyyəti sahələrindən biri maldarlıq olub. Burada at, eşşək, dəvə və qatır saxlanıb və maldarlıq tövlə-otlaq-yaylaq və tövlə-otlaq tipində olub.

1683-cü ildə Bakıda olmuş alman səyyahı Engelbert Kempfer yazırdı ki, şəhəri qoyun əti ilə Abşeron kəndləri təmin edir. Bütün Qafqazda qoyunçuluğun əsas beşiyi sayılan Azərbaycanda təbii seçmə və xalq seleksiyası yolu ilə bir sıra məhsuldar qoyun cinsləri və növləri əmələ gəlib. Bunlardan Qarabağ, Qala, Qaradolaq, Şirvan, Bozax və s. qoyun cinslərini qeyd etmək olar.

Abşeronda quyruqlu qoyunlar saxlanılmaqla, əsasən Qala, Kəsmərək, Şirvan, Dağıstan qoyun cinsləri yayılıb. Qala və Kəsmərək qoyun cinsləri Abşeron üçün səciyyəvi olub.

Qala qoyun cinsi öz üstün keyfiyyətlərinə nəinki Abşeronda, hətta Qafqaz regionunda qabaqcıl yerlərdən birini tutur. Bunu müvafiq elmi məlumat kitabları, ta qədimdən qoyunçuluqla məşğul olan bu təsərrüfat sahəsinə dərindən bələd olanlar da təsdiqləyər.

Qala qoyunu haqqında "Azərbaycan Ensiklopediyasında yazılır": "Qala qoyunu qaba yunlu, yağlı, quyruqlu, ətlik-südlük, yerli qoyun populyasiyalarından olub, xalq seleksiyası yolu ilə yayılmışdır. Başı iri, boynu uzunsov və ətli, döşü enli, ayaqları uzundur. Qoçları buynuzlu və xırda buynuzlu (həmçinin gabaş, yəni buynuzsuz)olur. Rəngləri əsasən kürən və bozdur".

Qoyunların nişanələrə ayrılmasında onların rəngi, qulaq rəngi, forması və s. başlıca əlamətlərdən sayılıb. Məsələn, qırmızıqulaq, bozqulaq, sarıqulaq, qızılqulaq, kərə, kürə, əbrəş, boz əbrəş, çahar təpəl, ağ təpəl, qara, çal, ağ, boz, qumral, qızılı, ala, ətəkli və s. Ümumiyyətlə, Abşeronda xarici əlamətlərə görə qoyunlar 56 növə ayrılıb.

Qala cinsinin qoçları 56-100 kq, qoyunları isə 48-76 kq olur. İki hissəli quyruqları 6,3-10 kq (bəzən 15-20 kq) təşkil edir. Həmin cins həm də qalın yunlu olur. Belə ki, qoçlardan orta hesabla 3,4-4,5 kq, qoyunlardan isə 2,85 kq yun qırxılır. İllik süd sağımı 55-60 litr təşkil edir. Hər 100 doğar qoyundan 102-110 quzu almaq olar. Onların duruşu da cəlbedicidir. Bütün bu cəhətlərinə görə Qala qoyunu Abşeronda həmişə yüksək qiymətləndirilib.

Əhliləşdirilmiş ev heyvanları içərisində at qədər insana yaxın və mehriban olanı yoxdur. Yaxşı at sahibini məğrur, cavan, şux saxlayır. "At muraddır", "Yuxuda at görən adam öz muradına çatar" deyilir. "At nalı ilə rastlaşan adam istəyinə çatar" deyiblər. Adətən küçə qapılarına, kandara nal mıxlayırlar ki, o həyətə, evə, ailəyə səadət nəsib olsun. 1832-ci ilə aid arxiv sənədlərində göstərilir ki, ticarət işlərində istifadə üçün Bakı xanlığında 3000 at var idi. XX əsrin əvvəllərinə kimi Abşeronda həm əkinçilik, həm heyvandarlıq təsərrüfatlarında, həm də nəqliyyat vasitəsi kimi at mühüm rol oynayıb. 1898-ci ilin məlumatına görə, Bakı quberniyasında təqribən 9962 ədəd at olub.

Abşeronda Qarabağdan, Qubadan və s. yerlərdən gətirilmə atlarla yanaşı, yerli atlar da şöhrət qazanıb. Bu cəhətdən Qala atları daha çox diqqəti cəlb edirdi.Yarımadada satış məqsədilə at əsasən Saray, Qobu, Güzdək, Novxanı və xüsusən də Qalada yetişdirilirdi. Qala atları sərrast bədən quruluşuna, yorğa yerişinə, qoşqu keyfiyyətlərinə, həmçinin daşlı-kəsəkli yerlərdə sərbəst yerişinə görə yüksək qiymətləndirilirdi.Təsadüfi deyil ki, abşeronluların ən sevimli əyləncələrindən olan at çapma yarışları (xüsusən bayramlarda) əsasən Qala kəndində keçirilirdi. Belə yarışlarda əsasən yerli cins atlar sınaqdan çıxarılardı.

At çapma yarışı ilə əlaqədar ibratamiz bir toy adəti haqqında danışmaq yerinə düşərdi. Vaxtilə Abşeron kəndlərində "gəlin gəldi " zamanı pərdə aparmaq ənənəsi geniş yayılmışdı. Gəlin gətirməyə araba, faytonla bərabər atlılar da gedərdi. Gəlin yola düşdükdən sonra "gəlin pərdəsi"ni atlılardan birinə verərdilər ki, onlar da atlarını çapmağa başlardılar. Kim qabağa düşdü, pərdəni o birindən alardı. Atlılar çapa-çapa pərdəni bir-birinə ötürərdi. Oğlan evinə hansı atlı tez çatsaydı, ona xələt bağışlar və atının alnına çiy yumurta çırpardılar. Adət-ənənəmiz beləydi:

*Dər gülü, at igidə*
*Varın var, sat igidə*
*Bərk gündə, bərk ayaqda*
*Yoldaşdı at igidə*

Artıq arxaikləşmiş və unudulmaqda olan belə adət-ənənələr tədricən bərpa olunaraq dirçəldilməsi, vaxtilə Qala kəndində keçirilmiş at çapma yarışları, bayramlar keçirilməsi ənənələrinin bərpası Abşeron kəndlərinin adət-ənənələrinin tanıtımında, bu kəndlərdə kənd turizminin, etnoturizmin inkişaf etdirilməsinə təkan verərdi. Turizmun bu növləri dünyada, Avropa ölkələrində geniş istfadə olunmaqla həmin ölkələrin iqtisadi inkişafında mühüm istiqamətlərindən birinə çevrilib.





Abşeronda atçılıqla bərabər qatır da saxlanırdı.Təsərrüfat işlərində, yük daşımasında istifadə olunan qatır cinsi ən çox Qala kəndində yetişdirilib.

Abşeron yarımadasının təbiəti dəvəçilik üçün çox əlverişli olub. Dəvəçiliklə əlaqədar xalqımızın belə bir zərb-məsəli var: "Dövlətdə dəvə, övladda nəvə". Dəvə təkcə sərvət, bərəkət simvolu yox, həm də əzəmət, qüvvət, yenilməzlik rəmzi sayılıb. İ.Q.Gerber soyadlı müəllif hələ XVIII əsrin 20-ci illərində yazırdı ki, əsrin əvvəllərinə kimi yarımada əhalisi çoxlu sayda dəvəyə malik idi. XIX əsrin əvvəllərinə kimi Abşeronun bir çox kəndlərində, o cümlədən Qalada, Güzdəkdə, Coratda, Masazırda, Maştağada, Hökməlidə, Sarayda, Fatmayıda, Zabratda, Novxanıda, Xırdalanda, Qobuda dəvə saxlanırdı. Məs: XIX əsrin 80-ci illərinə dair məlumatda göstərilir ki, Coratda 300, Qobuda 200, Maştağa və Sarayda hərəsində 100 baş hesabı ilə dəvə var idi. Burada həm iki hörgütlü, həm də bir hörgütlü dəvələr olub.

Abşeronda dəvəçilik bir növ sənaye məqsədinə xidmət edirdi. Yəni yüz illər boyu buradan Azərbaycanın müxtəlif bölgələrinə, hətta xarici ölkələrə neft əsasən tuluqlarla, məhz dəvələrlə daşınırdı. Belə bir faktı nəzərə alsaq ki, dəvə orta hesabla 400-500 kq yük götürməklə, gün ərzində 80-90 km yol gedə bilir, onda neft daşınmasında dəvənin əvəzsiz olduğu aydın olar.

Buna görə də Bakının bir çox kəndlərində dəvə karvanları saxlanırdı. Binəqədidə Hacı Əsgərin, Hacı Diyarın, Hacı İsgəndərin, Hacı Musanın, Hacı Mələmdzinin karvanları adla idi. XIX əsrin əvvəllərində Bakı xanının ticarət karvanlarında 479 dəvə var idi.

Dəvə yunundan məişətdə yüksək keyfiyyətli paltar və döşənəcək hazırlanmasında istifadə edilirdi. Abşeronda müxtəlif yeməklərin hazırlanmasında, yaxud ayrıca olaraq dəvə südü, demək olar ki, istifadə olunmayıb. Abşeron mətbəxində dəvə ətindən isə əsasən qutab hazırlanırdı.

Azərbaycanda dəmiryol nəqliyyatı işə düşəndən sonra Abşeronda dəvəçilik təsərrüfat sahəsi kimi sıradan çıxmağa başladı. Hazırda isə ancaq Qobu və Güzdəkdə müəyyən qədər dəvə saxlanır.

Əhalinin məşğulluğunda Abşeronda neft və duz istehsalı və onların məişətdə rolu əsas olub. Abşeronda neft çıxarılması, ondan bu və ya digər məqsədlər üçün istifadənin tarixi eradan əvvəlki dövrlərə gedib çıxır. Neft Azərbaycanın daxili bazarlarından başqa Şimali Qafqaza, Dağıstana, İrana, Orta Asiyaya, İraqa, Türkiyəyə, Hindistana daşınmaqla, Həştərxan vasitəsilə Rusiyaya və Qərbi Avropaya aparılırdı.

Qədim dövrlərdən başlayaraq Bakı neftindən məişətdə, xalq təbabətində və hərbi işlərdə geniş istifadə olunub. Orta əsr müəlliflərinin əsərlərində rənginə və keyfiyyətinə görə Bakıda bir neçə növ neft çıxarıldığı qeyd olunur: qara, ağ, qırmızımtıl, sarı, yaşıl və s. Bunların içərisində ən qiymətlisi ağ və sarı rəngli neft idi. Qara neftdən əsasən evi qızdırmaq üçün yanacaq və çıraq kimi istifadə olunurdu. Türk səyyahı Övliya Çələbi yazırdı ki, bütün evlərdə neft saxlamaq üçün daşdan düzəldilmiş qablar var idi. Bundan başqa, qala və sarayları qızdırmaq üçün də neftdən istifadə olunurdu.

Vaxtilə Bakının qara neftindən çıraq yağı kimi dünyanın bir çox ölkələrində, xüsusilə İranda geniş istifadə olunurdu. Ağ neft tərkibcə ən təmiz olmasına, tez alışıb-yanmasına, yanarkən güclü istiliyinə görə yüksək qiymətləndirilirdi. Bundan başqa, ağ neft ipək və yun parçalarda olan yağ ləkələrinin təmizlənməsində də təbiq olunurdu.

Bakı neftinin müalicəvi xüsusiyyətləri ilə əlaqədar neft nəinki digər ölkələrə ixrac olunur, hətta müalicə üçün müxtəlif dövlətlərdən (o cümlədən İrandan) bura xəstələr şəfa tapmaq üçün gəlirdilər. Əsrlər boyu bir sıra xəstəliklərin, o cümlədən yel, sümük, oynaq ağrıları, toxuma, qulaq, irin, çiban, sınqa, mədə yarası, böyrək və öd kisəsi daşı, müxtəlif dəri-zöhrəvi, bir sıra qadın xəstəlikləri və s.müalicəsində neft müvəffəqiyyətlə təbiq olunub.

***Elxan MƏMMƏDOV***
***Tarixçi***

***(Ardı növbəti saylarımızda)***

# Şəbnəm Tapdığın "brend mənəm" mahiyyətli iddiasına şou aləmdən reaksiyalar...

*Müğənni Şəbnəm Qəhrəmanova "zarafat etmirəm, məndən polisə şikayətçi olub ki, adını dəyişsin", aparıcı Şəbnəm Həsənova isə "mən indiyə qədər Şəbnəm adı ilə efirə çıxmışam, bundan sonra da öz adımla fəaliyyətimi davam etdirəcəm" deyirlər...*

**Məlum olduğu kimi, son günlər Şəbnəm adı daşıyan iki müğənninin ad davası medianın gündəminə gəlib. Tərəflər arasında qalmaqal o həddə çatıb ki, hətta problemin hüquq müstəvisində həllinə də əl atılıb. Müğənni Şəbnəm Qəhrəmanova mətbuata bildirib ki, müğənni Şəbnəm Tapdıq onunla bağlı polisə müraciət edib.**



***Xəyalə Rais:*** *"...bu adı daşıyan digər məşhur insanlarla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməsi barədə xəbərlər şou-biznesdə də ciddi müzakirə edilir"*

***Şəmsəddin Əliyev:*** *"Şəbnəm Tapdığın məhkəməyə müraciət etmək hüququ var, ancaq..."*

O qeyd edib ki, həmkarı Ş.Tapdıq tərəfindən məhkəməyə verilib və daha sonra isə həmkarı 102-yə zəng vuraraq ondan şikayətçi olduğunu deyib. "Mənim evimi yıxdı. Mənə deyir ki, adını dəyiş. Mən bunu necə edə bilərəm? Zarafat etmirəm, məndən polisə şikayətçi olub ki, adını dəyişsin".

Müğənni Ş.Tapdıq təkcə Ş.Qəhrəmanovaya deyil, bu adı daşıyan digər həmkarlarına, eləcə də aparıcı Şəbnəm Həsənovaya da dəfələrlə xəbərdarlıq edərək adlarını dəyişdirməyi tələb edib. Bildiyimiz kimi, Ş.Tapdığın bu tələbi bir neçə dəfə qalmaqal yaradıb.

Müğənni Şəbnəm Tapdıq Şəbnəm adı daşıyanları məhkəməyə verməklə kifayətlənməyib, onlara qarşı efir qadağası qoyulması üçün Milli Televiziya və Radio Şurasına ərizə ilə müraciət edib. Müğənni yenidən məsələ qaldıraraq Şəbnəm adı ilə efirə çıxanlara qadağa qoyulmasını, onların efir zamanı özlərinə təxəllüs seçmələrini xahiş edib.

Müraciətdən bir müddət sonra "Lider" TV-nin aparıcısı Şəbnəm Həsənova öz "Facebook" hesabında məsələ ilə bağlı paylaşım edib. "Hazırda çalışdığım "Lider" televiziyasına MTRŞ və Müəllif Hüquqları Agentliyindən belə bir məktub gəlib. Bir sözlə, xanım tələb edir ki, bütün tanınmış Şəbnəmlər özlərinə efir "psevdonimi", təxəllüs seçsin. Əks halda, biz BÖYÜYÜMÜZ Şəbnəm xanıma patent ödəməliyik", - deyə o bildirib.

Şəbnəmlər arasında yaranan ad qalmaqalına və Ş.Tapdığın müraciətinə münasibət bildirən Milli Televiziya və Radio Şurasının aparat rəhbəri Asəf Hacıyev mətbuata açıqlamasında həqiqətən də müğənni Şəbnəm Tapdığın onlara müraciət etdiyini bildirdi: "Biz məsələni araşdırdıq. Aydın oldu ki, Şəbnəm xanımın adı ilə bağlı qaldırdığı iddia əsassızdır. Belə ki, atası mərhum İlyas Tapdıq yazdığı əsəri patentləşdirib. Əsərdə qeyd olunan adların patentləşdirilməsi isə qeyri-realdır. Bununla bağlı müğənninin özünə də məlumat verdik. Eyni zamanda, televiziyalara məsələ ilə bağlı özlərinin qərar verməsi üçün məktub göndərdik" - deyə MTRŞ təmsilçisi qeyd edib.

"Lider" TV-nin əməkdaşı Şəbnəm Həsənova isə qeyd edib ki, hazırda onun işi ilə bağlı heç bir problem yoxdur: "Arada anlaşılmazlıq yaranıb. Ümid edirəm ki, məsələ ilə bağlı doğru qərar veriləcək. Mən indiyə qədər Şəbnəm adı ilə efirə çıxmışam, bundan sonra da öz adımla fəaliyyətimi davam etdirəcəm".

Ş.Tapdığın bütün məşhur Şəbnəmlərdən adlarını dəyişdirmələri ilə bağlı tələbi sosial şəbəkələrdə də geniş müzakirə mövzusuna çevrilib.

Hüquqşünaslar qeyd edirlər ki, Azərbaycanda adların patentləşdirilməsi kimi hal yoxdur. Onların bildirdiyinə görə, bu tələbin hüquqi əsası yoxdur. Hüquqşünaslara görə, Şəbnəm antroponimi ada çevrilməzdən öncə dilimizdə ümumi söz kimi yüz illərlə mövcud olub. Dilçilər isə bildirirlər ki, Şəbnəm sözü də fars sözüdür və mənası şeh deməkdir və kim araşdıra bilər ki, məhz Azərbaycanın ilk Şəbnəmi Ş.Tapdıqdır.

Şou-biznes aləmində də Ş.Tapdığın iddiasını absurd sayanlar çoxdur. Onlar hesab edirlər ki, bu gün Azərbaycan musuqisində, şou-biznesində eyni adı, hətta soyadı paylaşan sənətkarlar, müğənnilər var, onlar da Ş.Tapdığın yolunu tutmalıdırlar?

**Mədəniyyətşünas Xəyalə Rais bizimlə söhbətində qeyd etdi ki, Ş.Tapdığın öz adını patentləşdirməsi qeyri-real görünür.** O hesab edir ki, bir müğənninin ad qalmaqalı yaratması yaxşı nümunə deyil. Azərbaycanda İlhamə Quliyevadan başqa İlhamə adlı müğənnilər də var, ancaq sağlığında sənətkar bir dəfə də olsun bu barədə hər hansı iddia səsləndirməyib ki, filankəs, get adını dəyişdir, ölkənin ilk İlhaməsi mənəm. "Şəbnəm Tapdıq uzun illərdir müxtəlif absurd iddialar irəli sürür. Onun bu cür fikirləri şou-biznesdə qeyri-normal qarşılanır, hətta lağ, gülüş hədəfinə çevrilir. Onun məşhur Şəbnəmlərdən adlarının dəyişdirilməsini tələb etməsi düzgün deyil. Şəbnəm adı daşıyan məşhurların hamısı çaş-baş qalıblar. Onlar işdən çıxarılacaqlarından, efirlərə buraxılmayacaqlarından əndişələnirlər. Şəbnəm Tapdıq deyir ki, adını müvafiq qurumlarda patentləşdirib, o öz adını necə patentləşdirə bilər? Görmüşük ki, yaradıcı insanlar əsərlərini, alimlər ixtiralarını, hansısa şirkət buraxdığı məhsulları patentləşdirir, amma adın patentləşdirilməsini birinci dəfədir eşidirəm. Xalq yazıçısı Anar ölkəmizin ilk Anarıdır, ondan sonra minlərlə oğlan uşağına Anar adı verilib. İndi durub desin ki, bütün Anarlar öz adlarını dəyişdirsinlər, bu mümkün deyil. Şəbnəm Tapdığın həmkarları ilə, eləcə də bu adı daşıyan digər məşhur insanlarla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməsi barədə xəbərlər şou-biznesdə də ciddi müzakirə edilir. Hər kəs onun bu addımını təəccüblə qarşılayır" - deyə X.Rais qeyd etdi.

**Tanınmış hüquqşünas Şəmsəddin Əliyev də "Bakı-Xəbər"ə bildirdi ki, müğənni Şəbnəm Tapdığın iddiası məhkəmə tərəfindən təmin edilərsə, bu, başqaları üçün də presedent yaradar.** "Bəzən eyni adı 1000 nəfər daşıya bilər və bir nəfərin başqalarına "get, adını dəyişdir" deməsi tamamilə yanlış tələbdir. Bu baxımdan da Şəbnəm Tapdığın iddiası əsaslı deyil. İnanmıram ki, məhkəmə Şəbnəm Tapdığın bu iddiasını təmin etsin. Şəbnəm Tapdığın məhkəməyə müraciət etmək hüququ var, ancaq məhkəmənin başqa Şəbnəmlərdən adlarını dəyişdirməsini tələb etməsinin heç bir hüquqi əsası yoxdur. Müğənninin başqa Şəbnəmlərin adlarının dəyişdirilməsinə nail olması mümkünsüzdür və bu, xülyadan başqa bir şey deyil. Şəbnəm adında min adam olar və bu adları daşımağa məhkəmə onlara qadağa qoya bilməz. Atası şair İlyas Tapdığın ruhuna bizim hamımızın ehtiramı var, onun əsərləri bizim üçün çox dəyərlidir. Ancaq Şəbnəm Tapdığın bu şəkildə "favoritlik" etməsi nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət anlamına uyğun deyil. Bilirsiniz, onun bu iddiasını hakim təmin edərsə, bu başqaları üçün də presedent yaradar. Başqa populyar adamlar da bundan "ilhamlanıb" məhkəməyə müraciət edə bilər və başqa adaşlarından öz adlarını tələb edərlər. Bu da çox yanlış bir yanaşma olar" - deyə Ş.Əliyev vurğuladı.

***İradə SARIYEVA***

№ 118 (4016) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

6-8 İYUL 2019-cu il

www.baki-xeber.com



## Erkәn banlayan xoruzu mәhkәmәyә verdilәr

**Fransanın qәrbindәki Şaranta departamentindә erkәn banlayan xoruzun mәhkәmәsi keçirilir.**

"Trend"in mәlumatına görә, qonşuluqda yaşayan yaşlı cütlük Moris adlı xoruzu vә onun sahibini mәhkәmәyә verib. Onlar bildirir ki, uzun müddәt hәmin qadından xoruzla bağlı tәdbir görmәsini istәyiblәr. Cütlüyün vәkili 1000 avro mәblәğindә tәzminat tәlәb edir. Qeyd olunur ki, mәhkәmә sentyabrın әvvәlindә qәrar verәcәk.

## Allergiyanı yumurta qabığı ilә sağaltdı - 1987-ci ildә dәrc olunmuş resept...

**1987-ci ilin "Medicinskiy rabotnik" jurnalında professor Uxanskinin allergiya әleyhinә xalq tәbabәti yazısında adi toyuq yumurtasının qabıqları ilә müalicә resepti dәrc olunmuşdu. Hәmin dövrdә bir çox hәkimlәr dә bu reseptin әtrafında açıqlamar etmişdilәr.**



Bir hәkim isә 15 il sonra mәhz bu reseptlә ailә üzvlәrini vә bir sıra pasiyentlәrini müalicә etdiyini qeyd edib. "Medicina.az" professor Uxanskinin hәmin reseptini tәqdim edir. 5 әdәd kәnd toyuğu yumurtası taxşı yuyulur, suda bişirilir, soyudulub qabığı soyulur, qabığın iç sәthindә olan şәffaf plyonka çıxarılır. Qabıqlar boşqabda 4-6 saat әrzindә qurudulur. Gün altına vә mikrodalğalı sobaya qoymaq olmaz. Sonra qabıqlar narın edilir. 1 çay qaşığı qabığın üzәrinә bir neçә damcı limon suyu sıxılır. Bu miqdarı bir az suda hәll edib içirsiz vә ya udub üzәrindәn su içirsiz.

Bu doza böyüklәr üçündür. Uşaqlara isә bu dozanın yarısı verilir. Tәtbiq edәnlәr deyir ki, bu reseptlә uşaqlarda diatez vә allergiyanı sağalda biliblәr.

Kurs 2 hәftәdir. Sәbrlә hәr gün qәbul edin.

## Elan

"SKS" MTK-ya mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, Füzuli küçәsi 45 ünvanında yerlәşәn qeyri-yaşayış sahәsinә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

"SKS" MTK-ya mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, R.Rza küçәsi, ev 56 ünvanında yerlәşәn mәnzilә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Talıbzadә Xuraman Sәmәdağa qızına mәxsus, Binәqәdi rayonu, Görәdil kәndindә yerlәşәn №568 b saylı bağ sahәsinә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## "Nar" komandası "Breyn Rinq" intellektual yarışının qalibi oldu

**Gәnclәrin intellektual inkişafına xüsusi diqqәt ayıran "Nar" mobil operatorunun dәstәyilә baş tutan "Breyn Rinq" intellektual bilik yarışının on üçüncü mövsümü başa çatıb. Final mәrhәlәsindә "Lerik" vә "Gәncә" komandaları da yarışsa da, qalib adı uğrunda mübarizәdә "Kapital Bank" vә "Nar" komandaları qarşılaşıblar.**

Yüksәk xal fәrqi ilә qalib gәlәn "Nar" komandası "Breyn Rinq" intellektual bilik yarışının on üçüncü mövsümünün çempionu adına layiq görülüb. Qeyd edәk ki, "Azerfon" şirkәtinin baş icraçı direktoru Gunnar Pahnke qalib komandanı qәbul edәrәk onları tәbrik edib vә bundan sonrakı fәaliyyәtlәrindә uğurlar dilәyib.

Yarışma dövrü boyu komanda şәklindә yarışda iştirak edә bilmәyәn şәxslәr üçün hәr hәftәsonu "Nar"ın "Facebook" sәhifәsindә xüsusi müsabiqә keçirilib. İyun ayında "Breyn Rinq"in efirdә yayımlandığı saatda sәhifәdә paylaşılan suala әn tez cavab verәn istifadәçilәrin adları isә artıq mәlumdur: Mehralı Üzeyir, Şirinzadә Vüqar, Mahmudov Ramin, Hәsәnov Emin vә Ağazadә Anar.

Gәnclәrin maariflәnmәsinin, dünyagörüşünün vә analitik düşüncә bacarığının inkişafının cәmiyyәt üçün әhәmiyyәtini anlayaraq, "Nar" öz Korporativ Sosial Mәsuliyyәt strategiyası çәrçivәsindә ilboyu müxtәlif layihәlәrә dәstәk verir ki, "Breyn Rinq" bilk müsabiqәsi dә bunlardan biridir. Ətraflı mәlumatı https://www.facebook.com/Narofficial hesabından vә https://nar.az/ saytından әldә etmәk mümkündür.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7800-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Ölkәnin әn arzuolunan iş mәkanında 1 gün

*"Azercell"in tәşәbbüsü ilә keçirilәn tәdbirdә iştirakçılar şirkәtin fәaliyyәti ilә yaxından tanış olmaq imkanı qazanıb*

**Fәaliyyәtinin yeni rәqәmsal dövrünә qәdәm qoyan Azәrbaycanın telekommunikasiya sahәsinin lideri "Azercell Telekom" MMC 28 iyun tarixindә ilk dәfә olaraq "Azercell"dә 1 gün" adlı tәdbir tәşkil etdi.**

Bununla da "Azercell" tәdbirә qatılan qonaqlara şirkәtin iş mühiti ilә yaxından tanış olmaq vә İT sahәsinin aparıcı ekspertlәri ilә mәlumat mübadilәsindә iştirak etmәk üçün әvәzolunmaz fürsәt yaratdı. "Azercell"in İT vә Big Data departamentlәrinin mütәxәssislәri "Data Engineering and Machine Learning" kimi dövrün әn aktual mövzularına toxunaraq, öncәdәn müraciәt әsasında seçilәn 40-dәk qonaqla öz tәngin tәcrübәlәrini bölüşdülәr vә telekom sahәsinin әn son trendlәri haqqında geniş mәlumat tәqdim etdilәr. Tәdbirdә iştirak edәn müxtәlif şirkәt әmәkdaşları vә ali tәhsil müәssisәlәrinin tәlәbәlәri rәqәmsal dünyanın yenilikәri ilә tanış olmaq imkanından da yararlandılar.

"Azercell Telekom" bundan sonra da müasir gәnclәrin öz potensial imkanlarını reallaşdırması vә peşәkar maraqlarının üzә çıxarılması mәqsәdilә müxtәlif tәşәbbüs vә layihәlәri hәyata keçirmәyә davam edәcәk.

Şirkәtin İnsan Qaynaqları Departamentinin tәqdim etdiyi әn son yenilikәri "Azercell Recruitment Team" LinkedIn sәhifәsindәn izlәyin!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Çalışdığınız kollektivdә qәfil xәbәrlәr istisna deyil. Mövcud vәziyyәti nәzәrә alaraq, imkanlarınızı aşmadan fәaliyyәt göstәrin. Yaşanalardan faydalanmaq üçün maksimum dәrәcәdә aktiv olun.



**Buğa** - Ambisioz, hikkәli, aqressiv olmayın. Əvvәlki inciklikәrin heyfini almağa çalışmayın. Münaqişәlәrә meylli, kinli insanlardan uzaq durun. Daxili azadlığınızı vә sәrbәstliyinizi qoruyun.



**Əkizlәr** - Ani qәrarlar vermәyin. Düşünüb daşının, sonra fikrinizi açıqlayın. Yaşanan proseslәrlә bağlı mövqeyinizdә dәyişikliklәr ola bilәr. Yaxın әtrafınızdakı insanlara dәyәr verin, onların qәlbini qırmayın.



**Xәrçәng** - Rutin işlәr darıxdırıcı tәsir bağışlasa da, onları yarımçıq qoymayın. Aksiyalara vә toplantılara qatılmayın. Müstәqil fәaliyyәtә üstünlük verin. Saxta etiraflara vә yalnız ilk baxışdan cazibәdar tәsir bağışlayan tәkliflәrә aldanmayın.



**Şir** - Tәşәxxüslü, ifrat qürurlu olmayın. Hisslәrinizә hakim ola bilmәsәniz, fәsadları ağır addımlar ata bilәrsiniz. Ailә üzvlәrinin tәlәblәrini nәzәrә alın. Onların istәklәri ön planda olmalıdır. Axşam saatlarında әylәncәyә yollana bilәrsiniz.



**Qız** - Günün ilk yarısı yaradıcılıq üçün әlverişlidir. Xatirәlәrin tәsiri vә hisslәrin pressinqi altında olsanız, әn adi, rutin işlәr yarımçıq qala bilәr. Rasional mәntiqinizi unudub ani istәklәrlә davranmayın.



**Tәrәzi** - Maliyyә mәsәlәlәrindә diqqәtli olun. Münasibәtlәrdә gәrginlik yarada bilәcәk addımlar atmayın, sayıq vә diqqәtli olun. Bәdxәrclik etmәyin, alış-verişdә mәntiqli davranın. Qida rasionunuza fikir verin.



**Əqrәb** - Emosiyalarınızı nәzarәtdә saxlayın. Hisslәriniz sizi yanlış addımlar atmağa vadar edә bilәr. Tәmkinli olun, bütün diqqәti işә yönәldin. Maddi vә ya mәnәvi baxımdan tәzminatlar әldә etmәyә can atmayın.



**Oxatan** - Sınaq zamanıdır. Günün ilk yarısından etibarәn manеәlәr vә sәdlәrin sayı artacaq. Tәşәbbüslәr zamanı deyil. Cari işlәri başa vurun, yarımçıq heç nә saxlamayın. Kiçik uğursuzluqlar sizi ruhdan salmasın.



**Oğlaq** - Günün ilk yarısı qәfil hadisәlәr vә tәәssüratlar, görüşlәr vә xәbәrlәr vәd edir. Önәmli saydığınız mәsәlә ilә bağlı yeni mәlumatlar ala bilәrsiniz. Gözlәdiyiniz hadisә baş verәcәk.



**Dolça** - Rutin, adi işlәr üçün neytral zamandır. Qarşınıza böyük mәqsәdlәr qoyubsunuzsa, sizi çәtinliklәr gözlәyir. Mübahisәni, diskussiyanı, kütlәvi tәdbirdә iştirakı tәxirә salın. Mövqelәrinizi qorumağa çalışın.



**Balıqlar** - Dәyişikliklәrә başlamaq zamanıdır. Perspektivlә bağlı mәlumatlar alacaqsınız. Yaxın әtrafınızdakı insanlar ideyalarınızı dәstәklәyәcәklәr. Kiçik problemlәrin hәllini bir müddәtә tәxirә salmaq olar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Balıqçı tilovuna düşәn ovu görәndә şoka düşdü

**Avstraliyada balıqçılıqla mәşğul olan şәxs hәyatının şokunu yaşayıb.**



"Ölkә.az" xәbәr verir ki, tilovun ağırlıq etdiyini görәn balıqçının qarmağına şәffaf vә dәyişik formalı balıq düşüb. Trapman Merbaqui Sidney sahilindә tilovu dәnizә atıb. Bermaqui tilovu çәkәndә gözlәrinә inana bilmәyib. Onun qarmağından şәffaf vә fәrqli formada olan bir canlı sallanırdı. Özünә gәlәn balıqçı ovunu qarmaqdan çıxarıb masaya qoyur vә fotosunu çәkir. O, fotonu sosial şәbәkәdә paylaşıb. İzlәyicilәr isә bu canlının çox nadir vә dәrin sularda görülәn Haplofrin olduğunu açıqlayıblar. Yerli sakinlәr arasında "dәniz şeytanı" adı verilәn bu canlı 2.250 metr dәrinlikdә yaşayır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.